

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı



№ 10 - oktyabr 2021



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ

## hüquq jurnalı

**№ 10 - oktyabr 2021**

**TƏSİSÇİ:**

**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**



**BAŞ REDAKTOR:**

**Fikrət Məmmədov**

**REDAKSİYA HEYƏTİ:**

**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Cavid Hüseynov**
**Elçin Xələfov**


*"Qanunçuluq" jurnalı 1966-cı ildən nəşr olunur. Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində görülən işləri, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatını, ədliyyə və məhkəmə fəaliyyətini işıqlandırır, öz səhifələrində görkəmli alimlərin, təcrübəli hüquqşünasların məqalələrinə və gənc mütəxəssislərin çıxışlarına yer verir, Azərbaycan ədliyyəsinin tarixi, məhkəmə təcrübəsi və digər mövzularda materiallar, eləcə də yeni qəbul olunan qanunların, fərmanların və digər normativ-hüquqi aktların mətnlərini müntəzəm şəkildə dərc edir.*


© "Ədliyyə Nəşriyyat Evi"MMC

# Bu sayımızda

## RƏSMİ MƏLUMAT

Müstəqilliyin bərpasının 30-cu ildönümü münasibətilə Azərbaycan xalqına müraciət ......................4
Birinci vitse-prezident Mehriban Əliyeva Müstəqilliyin Bərpası Günü münasibətilə Azərbaycan xalqını təbrik edib ..........................................................................................................5
“Müstəqillik Günü haqqında” Azərbaycan Respublikasının 2021-ci il 15 oktyabr tarixli Qanunu......6
Azərbaycan və Türkiyə Qarabağ və Şərqi Zəngəzurda gedən quruculuq, bərpa işlərində birgə irəliləyir ..7
Prezident İlham Əliyevin rəhbərliyi ilə doğma torpaqlarımız yenidən dirçəlir ....................................9

## QARABAĞ AZƏRBAYCANDIR!

Azərbaycanın tarixi Zəfəri: Vətən müharibəsindən bir il ötür ..........................................................18

## ƏDLİYYƏ XƏBƏRLƏRİ

Dövlət müstəqilliyimizin bərpasının otuzuncu ildönümü ilə bağlı Ədliyyə Nazirliyinin Kollegiya iclası keçirilib ..........................................................................................................23
Avropa ədliyyə nazirlərinin konfransı keçirilib ..........................................................................25
Ölkəmizin beynəlxalq hüquqi sahədə əlaqələri genişlənir ..........................................................27
Avropa Şurası məhkəmə-hüquq sahəsində islahatları maraqla qarşılayır .......................................28
Məhkəmə-Hüquq Şurasının iclası keçirilib ..................................................................................29
Vətən müharibəsində şəhid olan ədliyyə işçisi Ruhin Xəlilovun anım günü keçirilib .....................31
Penitensiar xidmətin əməkdaşları “Qarabağın bərpa, yenidənqurma və inkişafı" sərgisində ...........32
Gənc hüquqşünaslar ədliyyə orqanlarına qulluğa qəbul olunub .....................................................33
Ədliyyə Nazirliyi Mətbuat xidmətinin məlumatı ..........................................................................34
Hakimlərin Seçki Komitəsinin məlumatı .....................................................................................34
Yuvenal ədliyyəyə dair görüş keçirilib .......................................................................................35
Ədliyyə Akademiyasında ............................................................................................................36
Yerli özünüidarəetmə sahəsində beynəlxalq əməkdaşlıq genişlənir ...............................................39
Bələdiyyələrə əhatəli metodoloji köməklik göstərilir ...................................................................41

## YENİ QANUNLAR, FƏRMANLAR...

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 30 sentyabr tarixli Konstitusiya Qanunu ................42

# Müstəqilliyin bərpasının 30-cu ildönümü münasibətilə Azərbaycan xalqına müraciət



Əziz həmvətənlər!

Sizi xalqımızın dövlətçilik ənənələrinin yenidən dirçəldilməsinin - müstəqilliyimizin bərpa edilməsinin 30-cu ildönümü münasibətilə ürəkdən təbrik edirəm.

1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmaq imkanı qazanmış, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə özünün Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu dünyaya bəyan etmişdir.

Azərbaycan müstəqilliyinin ilk illərində çoxsaylı təhlükələrlə üzləşmiş, ağır sınaqlardan keçmişdir. Daxili çəkişmələr, dövlət idarəçiliyindəki özbaşınalıq və səriştəsizlik, ağır siyasi və iqtisadi böhran ölkəni vətəndaş müharibəsi astanasına gətirmiş, onun gələcək taleyini sual altına qoymuşdu. Məhz bu şəraitdə Azərbaycan torpaqları Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qalmış, yüz minlərlə soydaşımız öz dədə-baba yurdlarından didərgin düşmüşdür. Baş verənlər bir daha göstərmişdir ki, həqiqi müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir.

Azərbaycan tarixinin bu ağır dönəmində Ulu Öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdı. Yalnız bundan sonra müstəqilliyin yenidən itirilməsi təhlükəsinin qarşısı alındı. Qısa müddətdə ölkəmizin müstəqil daxili və xarici siyasət strategiyasının təməl prinsipləri müəyyən olundu, ictimai-siyasi sabitlik, dövlət intizamı təmin edildi, demokratik islahatların həyata keçirilməsinə və ordu quruculuğu prosesinə başlanıldı. Azərbaycan gələcək taleyi baxımından həlledici rola malik "Əsrin müqaviləsi"ndə iştirakı ilə dünyanın enerji xəritəsində xüsusi mövqe qazandı, qlobal iqtisadi mühitə inteqrasiya proseslərinə qoşularaq gələcək müvəffəqiyyətlərinə yol açan cəsarətli addımlar atdı.

Ölkəmiz bu gün nəhəng regional və qlobal layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Azərbaycan özünün milli maraqları əsasında müstəqil xarici siyasət yürüdür və dünya miqyasında etibarlı tərəfdaş kimi tanınır. Son illər ərzində iqtisadiyyatımızın həcmi üç dəfədən çox artmış, güclü iqtisadi infrastruktur yaradılmış, mədəni irsimizin qorunması, inkişafı və təbliğində, təhsil, səhiyyə və digər sosial sahələrdə ciddi uğurlar əldə edilmiş, insanlarımızın maddi rifahı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Torpaqlarının iyirmi faizinin 30 ilə yaxın işğal altında qalmasına, bir milyondan artıq qaçqın və məcburi köçkünün olmasına baxmayaraq, Azər-

baycan məqsədlərinə doğru daim inamla irəliləmiş, öz hədəflərindən yayınmamışdır.

Uzun illər ərzində Azərbaycanın hərtərəfli inkişafı üçün rəhbər tutulan strateji xəttin, ölkəmizin daha da güclənməsi üçün görülən fasiləsiz işlərin məntiqi nəticəsi isə tarixi ədalətin bərqərar olması - Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi olmuşdur. Rəşadətli ordumuz döyüş meydanında həqiqi qəhrəmanlıq və vətənpərvərlik nümayiş etdirərək cəmi 44 gündə torpaqlarımızı işğaldan qurtarmışdır. Azərbaycan xalqının apardığı Vətən müharibəsi Ermənistanın kapitulyasiya aktını imzalaması ilə nəticələnmişdir. Azərbaycanın Vətən müharibəsindəki Zəfəri regionumuzda yeni reallıqlar yaratmışdır. Tarixi Qələbəmiz həm ölkəmizin, həm də bütövlükdə regionun inkişafında yeni dövrün başlanğıcıdır.

Bizə Zəfər bəxş etmiş bütün igid oğullarımıza bir daha minnətdarlığımızı bildirir, Vətənimizin ərazi bütövlüyü naminə canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini ehtiramla yad edirik.

Hörmətli həmvətənlər!

Mənim təşəbbüsümlə irəli sürülmüş qanun layihəsinin qəbul olunması ilə bu ildən etibarən 18 Oktyabr ölkəmizdə Müstəqilliyin Bərpası Günü kimi qeyd ediləcəkdir. Bu gün biz 30 illik müstəqillik tariximizdə ilk dəfə olaraq müstəqilliyimizin bərpasının ildönümünü ərazi bütövlüyünü təmin etmiş qalib xalq kimi qarşılayırıq. Yaxın tariximizin bu əlamətdar hadisəsi münasibətilə bütün Azərbaycan xalqını bir daha ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Müstəqilliyimiz əbədidir, dönməzdir, sarsılmazdır!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 18 oktyabr 2021-ci il*

# Birinci vitse-prezident Mehriban Əliyeva Müstəqilliyin Bərpası Günü münasibətilə Azərbaycan xalqını təbrik edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Müstəqilliyin Bərpası Günü münasibətilə rəsmi instaqram səhifəsində paylaşım edib.**

Paylaşımda deyilir: "Bu gün biz dövlətin suverenliyini, xalqımızın azadlığını, möhkəm iradəsini və həmrəyliyini təcəssüm etdirən Müstəqilliyin Bərpası Gününü qeyd edirik. Bütün Azərbaycan xalqını bu bayram münasibətilə səmimi-




qəlbdən təbrik edir, həmvətənlərimizin hər birinə möhkəm cansağlığı, sevgi, sevinc və xoşbəxtlik arzulayıram. Vətən uğrunda həlak olmuş bütün



şəhidlərimizə Uca Tanrıdan rəhmət diləyirəm. Qoy Azərbaycanın dövlət müstəqilliyi, ölkəmizdəki sülh və əmin-amanlıq əbədi olsun!".

# Müstəqillik Günü haqqında Azərbaycan Respublikasının Qanunu

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etmiş, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrini davam etdirmişdir. Qısa dövr ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradılmış, dövlət atributları təsis olunmuş, sərhədləri müəyyən edilmiş, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilmiş, Cümhuriyyətin beynəlxalq münasibətlər sisteminin subyekti kimi tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atılmışdır. Yeni fəaliyyətə başlamış parlamentin qəbul etdiyi qanunlar milli müstəqilliyin möhkəmləndirilməsində, ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, demokratik prinsiplərin təsbit edilməsində əsaslı rol oynamışdır. Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul olunmuşdur. Konstitusiya Aktında 1918-ci il 28 may tarixli İstiqlal Bəyannaməsinə və "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsinə istinad olunmuş, Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu təsbit edilmişdir. Beləliklə, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına əsasən Azərbaycan xalqı 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini bərpa etmişdir.

2021-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 30 ili tamam olur. Azərbaycan xalqı 1991-ci ildən sonra ilk dəfə bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir. Bu baxımdan dövlətçilik tariximizdə müstəsna əhəmiyyətli mərhələlərin, xüsusən müstəqilliyin əldə edilməsi və bərpası kimi tarixi günlərin onların mahiyyəti və məzmununa uyğun daha dəqiq ifadə olunması böyük önəm kəsb edir.

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə əsasən Azərbaycan Respublikasının Milli Məclisi 1918-ci il mayın 28-də İstiqlal Bəyannaməsi ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin elan olunduğunu, 1991-ci il oktyabrın 18-də isə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunduğunu nəzərə alaraq **qərara alır:**

**Maddə 1.** Mayın 28-i Müstəqillik Günü elan edilsin.

**Maddə 2.** Oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü elan edilsin.

**Maddə 3.** Müstəqillik Günü və Müstəqilliyin Bərpası Günü hər il bayram günləri kimi qeyd edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 15 oktyabr 2021-ci il*

# Azərbaycan və Türkiyə Qarabağ və Şərqi Zəngəzurda gedən quruculuq, bərpa işlərində birgə irəliləyir

## *Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Füzuli və Zəngilan rayonlarında səfərdə olub*





*Türkiyə Prezidentinin Azərbaycana səfəri, dövlət başçılarının təkbətək görüşü*





*Füzuli Beynəlxalq Hava Limanının açılışı*

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 26-da Azərbaycan Respublikasında rəsmi səfərdə olub.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı hava limanında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşılayıb.

Həmin gün Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi olub. Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak edib, hava limanının rəmzi açılışını bildirən lenti kəsiblər. Füzuli Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edilib, sonra hava limanında yaradılan şəraitlə tanış olunub.

Bildirilib ki, Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub. Hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin





*Zəngəzur dəhlizinin təməlinin qoyulması*








*Zəngilan rayonunda "Dost Aqropark"ın təməlinin qoyulması*

buraxılışına imkan verir. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Hava limanının ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb. Burada avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə qülləsi tikilib.

Daha sonra dövlət başçılarına Cocuq Mərcanlıda açılacaq Suvenir İstehsalı Müəssisəsinin fəaliyyəti barədə məlumat verilib. "Cocuq Mərcanlının İnkişafı" Fondu, "TÜİB" və "TİKA"nın maliyyə dəstəyi ilə yaradılacaq müəssisədə Cocuq Mərcanlı kəndinin 25 sakini işlə təmin olunacaq. Burada hədiyyəlik saxsı qablar, kiçik ölçülü xalçalar, əl işləri və digər məhsullar istehsal ediləcək.

Daha sonra dövlət başçıları söhbət ediblər.

Oktyabrın 26-da Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməli qoyulub. Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan əvvəlcə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış olub, Zəngəzur dəhlizinin təməlini qoyublar.

Dövlət başçıları Zəngilan rayonunda "Dost Aqropark"ın da təməlini qoyublar. Prezidentlər əvvəlcə aqroparkın ərazisində çinar ağacı əkib, Anadolu Agentliyinin Vətən müharibəsini özündə əks etdirən fotosərgisinə baxıblar. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ön sözünü yazdığı və Anadolu Agentliyi tərəfindən hazırlanan "Qarabağ Zəfəri" kitabını Prezident İlham Əliyevə təqdim edib.

Türk və azərbaycanlı sərmayədarlar tərəfindən Zəngilanda həyata keçiriləcək "Dost Aqropark" layihəsi üç mərhələdə icra olunacaq. Layihənin birinci mərhələsində inzibati binalar, qapalı və yarıaçıq heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, xidməti heyətin qalması üçün binalar tikiləcək. Kompleksdəki otlaq sahələrində 4 min baş cins qaramalın yetişdirilməsi, əkinçilik məhsulları istehsalı və digər fəaliyyətlər də həyata keçiriləcək. Bütün bunlar Azərbaycanın və Türkiyənin qida təhlükəsizliyinə töhfə verəcək, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaradacaq.

Sonra aqroparkda əkinə start verilib, prezidentlər "Dost





*Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın mətbuata birgə bəyanatları*

Aqropark"ın fəaliyyətinə xeyir-dua veriblər.

Oktyabrın 26-da Zəngilanın Ağalı kəndində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olub. Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyə Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Azərbaycan Prezidenti Türkiyənin dövlət başçısını qarşılayıb. Türkiyə və Azərbaycanın Dövlət himnləri səsləndirilib. Dövlət başçılarının təkbətək görüşü olub.

Səfər zamanı Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış olub, mətbuata birgə bəyanatlarla çıxış ediblər.

Həmin gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri başa çatıb, dövlətimizin başçısı ali qonağı Füzuli Beynəlxalq Hava Limanında yola salıb.

# Prezident İlham Əliyevin rəhbərliyi ilə doğma torpaqlarımız yenidən dirçəlir

## ◆ Tərtər rayonunun Talış kəndi və Suqovuşan qəsəbəsi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Tərtər rayonunda səfərdə olub.**

Tərtər şəhərinin mərkəzində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edən dövlətimizin başçısı rayonun Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən ümumi uzunluğu 28,5 kilometr, eni 9 metr olan yol 2 hərəkət zolağından ibarət olan avtomobil yollarının açılışını edib. Həmin yollar uzun müddət düşmən tapdağı altında olduğundan tamamilə sıradan çıxmış və dağılmışdır. Suqovuşanın işğaldan azad olunması ilə Bərdə, Goranboy, Naftalan, Yevlax, Ağcabədi rayonları daxil olmaqla təxminən 30 min hektara yaxın əraziyə ilk dəfə su verilib ki, bu da fermerlərə növbəli əkini təmin etməyə imkan yaradıb.

Həmçinin Tərtər rayonunda Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməli qoyulub. Ümumi uzunluğu 22 kilometr olan Tərtərin Talış kəndindən Goranboy rayonunun Tapqaraqoyunlu kəndini keçməklə Naftalan şəhərinə doğru yeni yolun inşası yolboyu yerləşən yaşayış məntəqələrinin sakinlərinin rahat gediş-gəlişini təmin etməklə bərabər bölgənin sosial-iqtisadi inkişafına töhfə verəcək.

Dövlət başçısı Talış kəndində




*"Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının açılışı*





*Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən yolun açılışı*

Azərbaycan bayrağını ucaldıb, həmçinin ermənilər tərəfindən dağıdılmış alban-udi və rus-pravoslav kilsələrində olub.

Suqovuşan qəsəbəsində də Azərbaycan bayrağını ucaldan Prezident İlham Əliyev bir il əvvəl müharibənin ilk günlərində qəsəbənin işğaldan azad edilməsinin böyük uğur və qələbəmiz olduğunu vurğulayıb, onun strateji nöqteyi-nəzərdən çox böyük əhəmiyyətindən bəhs edib, Vətən müharibəsində ordumuzun qəhrəmanlığından danışıb.

Həmin gün dövlət başçısı Tərtərdə "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra açılışını edib. Ümumi gücü 7,8 meqavat olan stansiyalar işğaldan azad olunmuş ərazilərin, xüsusilə Suqovuşan və Talış qəsəbələrinin elektrik enerjisi ilə təmin olunmasında mühüm rol oynayacaq.

Ölkə Prezidenti stansiyaları işə salıb, Suqovuşan su anbarında görülən işlərlə tanış olub.

Sonra Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin "Smerç" raketləri ilə hücumu nəticəsində Tərtər şəhərinin sakini Sahib İsmayılovun dağılmış evinə baxıb və onun əvəzinə inşa edilən yeni evdə yaradılan şəraitlə tanış olub.

Dövlət başçısı həmçinin şəhərin mərkəzində Ermənistan silahlı birləşmələri tərəfindən rayona müxtəlif tipli reaktiv yaylım atəşi sistemləri və artilleriya qurğularından atılmış mərmilərə baxıb.

Prezident İlham Əliyev oktyabrın 3-də Bərdə rayonunda da olub, Bərdə Peşə Liseyinin açılışında iştirak edib. Məlumat verilib ki, liseyin 5 bloklu tədris korpusunda sinif otaqları, laboratoriyalar, silah kabineti, idman və akt zalları, yeməkxana, emalatxana, iclas zalı və digər zəruri otaqlar vardır. Burada şagirdlərin mükəmməl peşə biliklərinə yiyələnməsi üçün hər cür şərait yaradılıb.

## Cəbrayıl rayonu

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Cəbrayıl rayonunda səfərdə olub.**

Dövlətimizin başçısı "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin təməlqoyma mərasimində iştirak edib, burada Rusiya Federasiyası Tatarıstan Respublikasının Baş nazirinin müavini, sənaye və ticarət naziri Albert Kərimov və "KamAZ" ASC-nin baş direktorunun müavini Rüstəm Şamsutdinovla görüşüb.

Qarabağ bölgəsində yük avtomobilləri və kənd təsərrüfatı texnikaları üçün "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin yaradılması xüsusi əhəmiyyət daşıyır.

Səfər zamanı dövlət başçısı Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlini qoyub. Bildirilib ki, sənaye parkı 200 hektar ərazini əhatə edəcək. Ərazi kənd təsərrüfatı məhsullarının emalı, sənaye, sosial və texniki zonalara bölünəcək. Burada logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması planlaşdırılır. Sənaye Parkında tikinti üçün üzlük və izolyasiya




*Hərbi hissə kompleksinin açılışı*



*"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlinin qoyulması*

materialları, müxtəlif qatqı maddələri, metal konstruksiya istehsalı müəssisələrinin təşkili nəzərdə tutulur. Parkın ərazisində, həmçinin kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, süd və ət məhsulları istehsalı və emalı, şərab, yem, gübrə istehsalı, ipəkçilik müəssisələrinin, soyuducu kameraların qurulması, kiçik istehsal və xidmət sahələrinin yaradılması planlaşdırılır.

Həmin gün Cəbrayıl rayonunda 110/35/10 kilovoltluq "Cəbrayıl" yarımstansiyasının açılışı olub. Açılışda iştirak

edən dövlətimizin başçısına məlumat verilib ki, Cəbrayıl rayonuna Füzulidəki "Şükürbəyli" yarımstansiyasından uzunluğu 31 kilometr olan 110 kilovoltluq ikidövrəli 1-ci və 2-ci "Cəbrayıl" hava xətləri çəkilib. Bir vaxtlar qoşunların təmas xətti olduğundan tamamilə minalanmış yerlərdən keçən xəttin uzandığı ərazi partlamamış sursatlardan təmizlənib. Yeni yarımstansiyada 110 kilovoltluq Açıq Paylayıcı Qurğu tikilib. O cümlədən 110/35/10 kilovoltluq "Qubadlı" və "Zəngilan" yarımstansiyalarının qidalandırılması məqsədilə Cəbrayıldan çəkilən ikidövrəli ötürmə xətlərinin qoşulması üçün texniki cəhətdən yarımstansiyada lazımi şərait yaradılıb.

Müzəffər Ali Baş Komandan Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışını da edib. Hərbi hissənin silah və döyüş texnikası arsenalına "Harop" və "Quzğun" zərbəendirici pilotsuz uçuş aparatları, tank əleyhinə dəzgahlı qumbaraatanlar, tank əleyhinə idarə olunan raketlər, 120 millimetrlik və 82 millimetrlik minaatanlar, zenit qurğuları və digər müasir silah sistemləri, atıcı, qrup və snayper silahları, müşahidə və gecəgörmə cihazları, termal qurğular və nişangahlar, xüsusi təyinatlı avadanlıqlar, həmçinin zirehli transportyorlar, yüksək keçidli avtomobillər, zirehli döyüş maşınları daxil edilib.

Prezident İlham Əliyev zirehli döyüş avtomobilini idarə edib, "Harop" pilotsuz uçuş aparatlarına baxıb. Ərazisi 64 hektar olan hərbi hissə kompleksində bütün zəruri şərait yaradılıb, əsaslı abadlıq işləri aparılıb.



Cəbrayıl şəhərinin bərpasının təməlinin qoyulması

Ölkə başçısı həmçinin, Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının və akademik Mehdi Mehdizadə adına tam orta məktəbin təməlqoyma mərasimlərində iştirak edib.

Ümumi ərazisi 2,6 hektar olan, 150 çarpayılıq xəstəxana binasında yoluxucu xəstəliklər korpusu və bir sıra texniki təyinatlı binalar olacaq. Burada rayon sakinlərinə yüksək səviyyədə tibbi xidmət göstərmək üçün hər cür şərait yaradılacaq.

960 şagirdin təhsil alacağı yeni məktəb binasında isə hər cür inventarla təchiz olunmuş sinif otaqları, fənn kabinetləri fəaliyyət göstərəcək.

Oktyabrın 4-də Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimi keçirilib. Prezident İlham Əliyev mərasimdə iştirak edib, yaşayış məhəlləsinin təməlini qoyub.

10,5 hektar ərazini əhatə edən yaşayış məhəlləsi mərhələli şəkildə tikilib istifadəyə veriləcək. İlk mərhələdə 5 bina tikiləcək və buraya 200-ə yaxın ailə, yəni 654 sakin köçürüləcək. Məhəllədə 4, 5 və 6 mərtəbəli yaşayış, o cümlədən digər təyinatlı binalar olacaq. Bu məhəllədə və ümumiyyətlə, şəhərin mərkəzində tikiləcək binaların fasad və eyvanlarına tarixilikləri qorunmaqla, müasir görkəm veriləcək.

Sonra dövlətimizin başçısı Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyub.

## ◆ Xocavənd rayonu

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Xocavənd rayonunun Hadrut qəsəbəsində və Tuğ kəndində səfərdə olub.**

Dövlətimizin başçısı Hadrut qəsəbəsində yeni məscidin təməlini qoyub. Yerli əhali üçün inşa ediləcək məscidin minarəsi 26 metr olacaq. Eyni vaxtda 250 nəfərin ibadəti üçün nəzərdə tutulan məscidin ikinci mərtəbəsində qadınların ibadət otağı yerləşəcək.

Eyni zamanda Hadrut-Cəbrayıl-Şükürbəyli, Tuğ-Hadrut və Füzuli-Hadrut yollarında aparılan tikinti işlərinin gedişi ilə tanış olan ölkə rəhbərinə məlumat verilib ki, Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolu başlanğıcını Cəbrayıl rayonu Şükürbəyli kəndindən keçən hissəsindən götürməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinə qədər uzanır. Tikintisi aparılan yolun uzunluğu 39,7 kilometrdir. Yol 4 hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun inşa edilir. Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu işğaldan azad edilmiş Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçir. Avtomobil yolu Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla sözügedən rayonların 20-yə yaxın yaşayış məntəqəsini əhatə edəcək.

Başlanğıcını Zəfər yolundan götürən Füzuli-Hadrut yolu isə yeni inşa edilən Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yoluna birləşir. Uzunluğu 13 kilometr olan birinci texniki dərəcəli Füzuli-Hadrut yolu 4 hərəkət zolaqlı olacaq.



*"Hadrut" qovşaq yarımstansiyasının təməlinin qoyulması*



*Tuğ kəndində*

Azərbaycan Prezidenti yeni "Hadrut" qovşaq yarımstansiyasının da təməlini qoyub. Bildirilib ki, Hadrut qəsəbəsini elektrik enerjisi ilə təmin etmək üçün Füzuli rayonundakı 110/35/10 kV-luq "Şükürbəyli" yarımstansiyasından "Hadrut" yarımstansiyasına qədər uzunluğu 27 kilometr olan 35 kV-luq ikidövrəli hava xətti çəkilib. Bununla da Hadrut qəsəbəsində yerləşən strateji obyektlər elektrik enerjisi ilə təchiz edilib. Şuşa şəhərinin qısa vaxtda elektrik enerjisi ilə təmin olunması üçün 35/10 kV-luq "Daşaltı" yarımstansiyası inşa edilib. Yarımstansiyanı qidalandırmaq üçün "Hadrut" yarımstansiyasından 53,5 kilometr uzunluğunda elektrik veriliş xətti çəkilib. "Hadrut"-"Daşaltı" elektrik veriliş xətti vasitəsilə ilkin

mərhələdə Şuşa şəhərinin, Xocavənd rayonunun bəzi kəndlərinin və ətraf ərazilərdəki mühüm strateji obyektlərin, eyni zamanda, bu istiqamətdə aparılan yol infrastrukturu və digər tikinti işlərinin elektrik təchizatı təmin edilib.

"Şükürbəyli", "Hadrut" və "Şuşa" yarımstansiyaları arasında yaradılmış 35 kV-luq dairəvi elektrik təchizat sxeminə daxil olan yeni "Hadrut" qovşaq yarımstansiyası Hadrut qəsəbəsində qurulacaq müxtəlif tə--yinatlı infrastrukturun elektrik enerjisinə olan tələbatını qarşılayacaq.

Həmin gün dövlətimizin başçısı Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Prezident İlham Əliyev Hadrut qəsəbəsinin işğaldan azad olunmasının birinci ildönümü münasibətilə təbrikini bildirib, Hadrut əməliyyatının İkinci Qarabağ müharibəsindəki əməliyyatlar sırasında xüsusi əhəmiyyət daşıyan əməliyyat olduğunu qeyd edib, qəsəbənin bərpası üzrə görülən işlərdən danışıb.

Sonra Prezident İlham Əliyev ictimaiyyət nümayəndələri ilə birlikdə Tuğ kəndini gəzib və onlarla söhbət edib.

## ◆ Füzuli rayonu





*Dövlətyarlı kəndində “Ağıllı kənd” layihəsinin təməlinin qoyulması*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli rayonunda səfərdə olublar.**

Dövlətimizin başçısı Füzuli-Ağdam avtomobil yolunun təməlini qoyub. Bildirilib ki, uzunluğu 64,8 kilometr, eni 15 metr təşkil edəcək yol 4 hərəkət zolaqlı olacaq. Layihəyə uyğun olaraq yolboyu körpülərin, avtobus dayanacaqlarının və digər yol infrastrukturunun inşası nəzərdə tutulur. Bərdə-Ağdam avtomobil yolunun davamı olan bu yolun inşası Bərdədən Füzuliyədək insanların rahat gediş-gəlişini təmin edəcək.

Ölkə Prezidenti və birinci xanım işğal zamanı dağıdılmış Füzuli rayonunun Dövlətyarlı kəndində yeni salınacaq "Ağıllı kənd" layihəsi ilə tanış olublar.

Məlumat verilib ki, yaşıl və alternativ enerjinin, "ağıllı idarəetmə" sisteminin tətbiq ediləcəyi "Ağıllı kənd" layihəsinə əsasən üç, dörd və beşotaqlı olmaqla, ümumilikdə ilkin mərhələdə 450 evin inşası nəzərdə tutulub. Burada, həmçinin məktəb və uşaq bağçası tikiləcək, kəndin mərkəzində meydan salınacaq, bazar yaradılacaq. Kəndin ətrafında isə "Ağıllı kənd" təsərrüfatı sahəsi olacaq.

Eyni zamanda burada xarici investisiya əsasında alternativ enerji həlləri məqsədilə günəş paneli tarlası salınacaq. Tarlada 20 daimi iş yeri yaradılacaq. Burada kartofçuluq dəyər zənciri üzrə müəssisələrin yaradılması planlaşdırılır. Kənddə Köndələnçay su anbarı əsasında ağıllı akvakultura sistemlərinin tətbiqi hesabına ixracyönümlü balıqçılıq təsərrüfatının qurulması da nəzərdə tutulub. Burada quşçuluq təsərrüfatı da yaradılacaq.

Ölkə başçısı "Ağıllı kənd"in təməlini qoyub.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış olub, Füzuli şəhərində Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməlqoyma tədbirində





*Füzuli şəhərinin bərpasının təməlinin qoyulması*   *Yeni salınan Mərkəzi Şəhər Parkında*

iştirak ediblər. Bundan əlavə dövlət başçısı və birinci xanımı Füzulidə yaradılacaq Mərkəzi Şəhər Parkında ağac əkiblər.

Səfər zamanı Füzuli şəhərində salınacaq çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimi olub. Mərasimdə iştirak edən Azərbaycan Prezidentinə və Birinci vitse-prezidentə məlumat verilib ki, 17,8 hektar ərazini əhatə edəcək yaşayış məhəlləsi mərhələli şəkildə tikilib istifadəyə veriləcək. İlk mərhələdə 1, 2, 3 və 4 otaqlı mənzillərdən ibarət 65 mənzilli 4-5 mərtəbəli yaşayış binaları inşa ediləcək. Məhəllədə çoxfunksiyalı binalar da olacaq. Ümumilikdə məhəllədə 2860 nəfərin yaşaması nəzərdə tutulur.

Həyət tipli plan quruluşlarına malik yaşayış məhəlləsinin inşasında ənənəviliklə müasirlik vəhdət təşkil edəcək. Bu kompleks şəhərin gələcək memarlıq simasının müəyyənləşməsinə təkan verəcək.

Sonra dövlət başçısı Füzuli şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməlini qoyub.

Prezident İlham Əliyev və birinci xanim Mehriban Əliyeva rayon ictimaiyyətinin nümayəndələri ilə də görüşüb, Füzuli Memorial Kompleksinin və Füzuli şəhərinin təməl daşını qoyublar.

## ◆ Zəngilan rayonu

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Zəngilan rayonunda səfərdə olublar.**

Dövlətimizin başçısı və birinci xanım rayonun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış olublar. Məlumat verilib ki, innovativ tikinti materiallarından istifadə olunmaqla tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. Yeraltı kommunikasiya işlərindən içməli su, çirkab və sel suları xətlərinin qazma işlərinə başlanılıb. Park meydanında nəzərdə tutulmuş fəvvarənin ərazisində abadlıq işləri yekunlaşıb. Piyada və velosiped yolları çəkiləcək.

Sonra Zəngilan Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olan dövlətimizin başçısına və birinci xanıma məlumat verilib ki, uçuş-enmə zolağının uzunluğu 3 min metr olan hava limanında tikinti işlərinə bu ilin may ayında başlanılıb. Zəngilan Hava Limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etmək imkanına malik olacaq.

Həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonunda yerləşən hərbi hissə kompleksində yaradılan şəraitlə tanış olublar. Dövlət Sərhəd Xidmətinin Azərbaycan Respublikasının İran və Ermənistanla dövlət sərhədlərinin Zəngilan rayonu ərazisindən keçən hissələrinin mühafizəsini həyata keçirən yeni hərbi hissə kompleksi 15 hektar ərazini əhatə edir. Buraya qərargah binası və əsgər yataqxanası, şəxsi heyətin xidmətinin yüksək səviyyədə aparılması üçün lazımi şəraitlə təmin edilmiş iş otaqları, yeməkxana və digər tikililər daxildir. Kompleksdə hərbi hissənin təyinatına uyğun xidməti-döyüş fəaliyyətinin





*"Zəngilan" yarımstansiyasının açılışı*

təşkilinə, hərbi qulluqçuların peşəkar və döyüş qabiliyyətlərinin yüksəldilməsinə, şəxsi heyətin hərbi biliklərinin və mənəvi-psixoloji hazırlığının təkmilləşdirilməsinə imkan verən zəruri şərait yaradılıb.

Dövlətimizin başçısına hərbi hissənin xidməti istifadəsində olan zirehli döyüş maşınları, atıcı silahlar, qumbaraatanlar, iriçaplı pulemyotlar, zenit qurğuları və digər texniki vasitələr təqdim olunub.

Səfər zamanı "Azərenerji" ASC-nin 110/35/10 kV-luq "Zəngilan" yarımstansiyasının açılışı olub.

Açılışda iştirak edən ölkə başçısına və birinci xanıma məlumat verilib ki, elektroenergetika infrastrukturu tamamilə dağıdılmış Zəngilan rayonuna Füzulidəki "Şükürbəyli" yarımstansiyasından ümumi uzunluğu 110 kilometr olan ikidövrəli 110 kV-luq elektrik



*"Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanışlıq*

verilişi xətti çəkilib. Hava xəttinin ildırımdan mühafizəsi və yarımstansiyalararası siqnalların ötürülməsi üçün zəruri işlər görülüb. Yarımstansiya binası müasir avadanlıqla təchiz olunub, 25 MVA gücündə 2 transformator quraşdırılıb.

Prezident İlham Əliyev "Zəngilan" yarımstansiyasını işə salıb. Sonra Zəngilan rayonunda Rəqəmsal Yarımstansiyanın təməlini qoyub. Təməlqoyma mərasimində dövlətimizin başçısına və birinci xanıma Rəqəmsal Yarımstansiya və rayonun elektrik təchizatı sxemi barədə məlumat verilib, 35/10 kV-luq 240 kilometrlik və 0.4 kV-luq 1050 kilometrlik elektrik veriliş xəttinin tamamilə yenidən qurulacağı bildirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Zəngilan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.

## ◆ Qubadlı rayonu

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 25-də Qubadlı rayonunda səfərdə olub, Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun 10-cu kilometrliyindən Qubadlı şəhər mərkəzinə gedən Xanlıq-Qubadlı yolunun təməlqoyma mərasimində iştirak ediblər.**

Bildirilib ki, başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Xudafərin su anbarı yaxınlığından keçən hissəsindən götürən bu yolun uzunluğu 56,4 kilometrdir. Qubadlı-Eyvazlı avtomobil yolunun uzunluğu 26 kilometr, eni



“Qubadlı” yarımstansiyasının açılışı



Yeni hərbi hissə kompleksinin açılışı

7 metr olacaq. Qubadlı-Xınzirək avtomobil yolunun uzunluğu 23,5 kilometr olacaq. Hər iki yol iki hərəkət zolaqlı inşa edilir.

Dövlətimizin başçısı Xanlıq-Qubadlı yolunun təməlini qoyub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sistem əhəmiyyətli 110/35/10 kV-luq "Qubadlı" yarımstansiyasının açılışında iştirak ediblər. Məlumat verilib ki, yarımstansiyanın tikintisi ilə paralel olaraq Qubadlının Azərbaycanın ümumi enerji sisteminə qoşulması, rayonun dayanıqlı elektrik enerjisi ilə təchiz edilməsi üçün Füzulidəki "Şükürbəyli" yarımstansiyasından "Cəbrayıl" yarımstansiyasına giriş-çıxış olmaqla 76 kilometr məsafədə ikidövrəli 110 kV-luq yüksəkgərginlikli "Qubadlı-1", "Qubadlı-2" elektrik verilişi xətti çəkilib. 150-160 MVt gücötürmə qabiliyyətinə malik yeni xətt layihələndirilərkən rayon üçün səciyyəvi iqlim parametrləri - buzlaşma, küləyin maksimal sürəti, qarın qalınlığı, çirklənmə və başqa amillər, o cümlədən baş verə biləcək qəza hallarının qarşısının alınması, lokallaşdırılması üçün zəruri sistem yaradılıb.



Xanlıq-Qubadlı yolunun təməlinin qoyulması

Dövlətimizin başçısı yarımstansiyanı işə salıb.

Həmin gün Qubadlı rayonunda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışı olub.

Azərbaycan Respublikasının Ermənistanla dövlət sərhədinin Qubadlı və Laçın rayonları ərazisindən keçən hissəsinin mühafizəsini təmin edən Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin ərazisi 25 hektardır. Kompleksin döyüş texnikası parkında helikopterlər, "HAROP", "Quzğun" və "Qırğı" zərbəendirici pilotsuz uçuş aparatları, tank əleyhinə dəzgahlı qumbaraatanlar və idarə olunan raketlər, 120 və 82 millimetrlik minaatanlar, zenit qurğuları və digər müasir silah sistemləri mövcuddur. Bununla yanaşı, hərbi hissənin istifadəsində döyüş texnikaları, yüksəkkeçidli nəqliyyat vasitələri, zirehli və avtomobil texnikası, tibb avtomobilləri var.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb, onlarla Qubadlı şəhərinin ərazisini gəziblər.

# Azərbaycanın tarixi Zəfəri: Vətən müharibəsindən bir il ötür

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımızın çoxəsrlik tarixinin ən şanlı səhifəsi yazıldı**

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**



Müharibənin birinci günü Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev televiziya ilə xalqa müraciət edərək Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən yaşayış məntəqələrimizi, hərbi mövqelərimizi atəşə tutduğunu, nəticədə mülki əhali və hərbçilərimiz arasında itkilərin, yaralananların olduğunu bəyan etdi.



Dövlətimizin başçısı müraciətində Azərbaycan Ordusunun düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirdiyini və Ermənistan silahlı qüvvələrinin xeyli sayda hərbi texnikasının və canlı qüvvəsinin məhv edildiyini bildirdi.

Saat 15 radələrində dövlətimizin başçısının sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi və Prezident İlham Əliyev aidiyyəti qurumlara verdiyi göstərişlər əsasında Azərbaycan Ordusunun genişmiqyaslı əks-hücum əməliyyatına başladığını bəyan etdi.

"Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!", - dövlətimizin başçısının xalqa müraciətində dediyi bu sözlər hər bir azər-

baycanlını Şanlı Zəfərə kökləyən əsas şüara çevrildi.

## "Dəmir yumruq" əməliyyatı: 44 gündə qazanılan şanlı zəfər

Uğurlu əks-həmlə əməliyyatının ilk saatlarından düşmənin xüsusilə möhkəmləndirilmiş ön müdafiə xəttini yaran Azərbaycan Ordusu günortadan sonra Qaraxanbəyli, Nüzgar, Yuxarı Əbdürrəhmanlı, Böyük Mərcanlı, Kənd Horadiz və Qərvənd kəndlərini, Ağdərə rayonunda və Murovdağ silsiləsində mühüm strateji yüksəklikləri azad etdi.

Azərbaycan Prezidentinin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında dövlətimizin başçısı qətiyyətlə bəyan etdi: "Bizim mübarizəmiz haqq mübarizəsidir və bu gün Azərbaycan vətəndaşları dövlətə tam dəstək göstərirlər, bu dəstəyi biz daim hiss edirik. Azərbaycan vətəndaşı Azərbaycan Ordusunun yanındadır. Otuz ilə yaxın öz doğma torpaqlarına qayıda bilməyən soydaşlarımıza da üz tutub deyirəm, biz əlimizdən gələni edəcəyik ki, sizi öz doğma torpaqlarınıza qaytaraq".

"Dəmir yumruq" əməliyyatını uğurla davam etdirən Azərbaycan Ordusu oktyabrın 3-də şimal cəbhəsində mühüm strateji əhəmiyyətə malik Madagiz kəndini işğaldan azad etdi. Bu xoş müjdəni tvitter hesabından xalqımıza çatdıran dövlətimizin başçısı kəndin tarixi adını da bərpa edərək onu Suqovuşan adlandırdı.

Ordumuz oktyabrın 4-də Cəbrayıl şəhərini, 9-da isə



Hadrut qəsəbəsini düşməndən təmizlədi. Ermənistan silahlı qüvvələrinin "məğlubedilməzlik" mifini əməliyyatların ilk günlərindəcə darmadağın edən rəşadətli ordumuz oktyabrın 17-də Füzuli şəhərində Azərbaycan bayrağını ucaltdı. Oktyabrın 18-də - Müstəqillik Günündə Azərbaycanın üçrəngli bayrağı qədim Xudafərin körpüsünün üzərində dalğalanmağa başladı. Bundan iki gün sonra - oktyabrın 20-də isə Zəngilan şəhəri işğaldan azad olundu. Oktyabrın 22-də Zəngilan rayonunun Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycanın İran ilə dövlət sərhədi tam nəzarətə götürüldü.

Azərbaycan Prezidenti İlham Əliyev tvitterdəki səhifəsində bu barədə belə qeyd etmişdi: "Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olundu. Bu münasibətlə Azərbaycan və İran xalqını təbrik edirəm. Eşq olsun müzəffər Azərbaycan Ordusuna!".

Ordumuz oktyabrın 25-26-da Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarının 17 kəndini və Qubadlı şəhərini azad etdi. Bu əməliyyatın ən böyük əhəmiyyətindən biri də Dağlıq Qarabağdakı separatçı ünsürlərlə Ermənistanı birləşdirən əsas magistral yolun nəzarətə götürülməsi idi.

Oktyabrın 28-dən noyabrın 7-dək olan müddətdə 53 kəndi və bir neçə strateji yüksəkliyi azad edən Azərbaycan Ordusunun növbəti hədəfi qədim Şuşa şəhəri idi.

Qəhrəman ordumuz Azərbaycanın və dünya hərb tarixinin şanlı səhifələrindən birini təşkil edən çətin Şuşa əməliyyatını uğurla başa çatdıraraq bu şəhəri işğaldan azad etdi. Belə ki, ərazinin və seçilən marşrutun nəqliyyat vasitələri üçün uyğun olmaması, eləcə də düşmənin gözləmədiyi istiqamətdən zərbə endirilməsi üçün Azərbaycan Ordusunun komandanlığı cəsarətli qərar qəbul etdi. Qəhrəman əsgər və zabitlərimiz Şuşaya Qarabağın sıx meşələrində onlarla kilometr uzunluğunda yeni yol açdı. Sonradan Müzəffər Ali



Baş Komandanımız tərəfindən Zəfər yolu adlandırılacaq bu yolla hərəkət edən Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri Şuşanın sıldırım qayalarına dırmaşaraq, yaralı döyüş yoldaşlarını çiyinlərində daşıyaraq bir neçə istiqamətdən şəhərə daxil oldular. İşğaldan azad edilmiş Daşaltı kəndindəki hərbi bölmələrin atəş dəstəyi ilə Azərbaycan Ordusunun dağ piyadaları qəfil pusquya salınmış erməni əsgərlərinin sonuncu müqavimətini də qırdı.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımızın otuz ilə yaxın həsrətlə gözlədiyi bu şad xəbəri Azərbaycan vətəndaşlarına noyabrın 8-də sübh tezdən Şəhidlər xiyabanından çatdırdı: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq... Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Şuşanın azad edilməsi Ermənistan ordusunun müqavimət gücünü tamamilə sarsıtdı. Nəticədə bu əməliyyatdan bir gün sonra - noyabrın 9-da Azərbaycan Ordusu daha 71 kəndi, bir qəsəbəni və 8 strateji yüksəkliyi düşməndən təmizlədi.

Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək ümumilikdə 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Bu, dünyanın müasir hərb tarixində misli görünməmiş uğurlu hərbi əməliyyat idi. Ermənistan ordusu demək olar ki, məhv edildi, düşmənin 3,8 milyard dollarlıq silah-sursatı sıradan çıxarıldı.

Müharibədəki ağır məğlubiyyət Paşinyan hakimiyyətini kapitulyasiya aktını imzalamağa məcbur etdi. Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən Üçtərəfli Bəyanatın imzalanması ilə hərbi əməliyyatlar dayandırıldı. Həmin Bəyanata uyğun olaraq, Ermənistan noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonlarını Azərbaycan Silahlı Qüvvələrinə təhvil verdi. Bununla da Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa edildi.

## Azərbaycan əsgərinin rəşadəti və müasir hərb tarixində iz qoyan döyüş əməliyyatları

XXI əsrin müharibəsini aparan Azərbaycanın döyüş təcrübəsi və taktikası bu gün dünyanın inkişaf etmiş ölkələrinin hərbi məktəblərində öyrənilir. Son dərəcə çətin relyef şəraitində cəmi 44 gün ərzində ən müasir döyüş silahlarının tətbiqi ilə şanlı qələbə qazanan Azərbaycan Ordusu yüksək peşəkarlıq nümayiş etdirdi. Ordumuz ilk gündən düşmənin müdafiə xəttini yararaq sonrakı 44 gündə yalnız irəli getdi.

Azərbaycan müasir döyüş strategiyasında pilotsuz uçuş aparatlarından (PUA) yüksək peşəkarlıqla istifadə edərək dünya hərb tarixində mühüm yeniliklər etdi. İkinci Qarabağ müharibəsinə qədər PUA-lardan

bu miqyasda, bu cür səmərəli şəkildə istifadə olunmamışdı.

Şuşanın azad olunması əməliyyatından danışan Prezident İlham Əliyev qeyd edib ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaq. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər.

Ordumuzun İkinci Qarabağ müharibəsində qazandığı şanlı qələbənin əsasında əsgər və zabitlərimizin qəhrəmanlığı və vətənpərvərliyi dayanır. Dövlətimizin başçısı bunu dəfələrlə vurğulayıb və çıxışlarının birində belə deyib: "Bu, yeni nəsil müharibə üsuludur, hansı ki, planlaşdırma, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh birləşir, vəhdət təşkil edir. Ancaq mən bunu artıq bir neçə dəfə demişəm, bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir".

Vətən müharibəsində şanlı qələbə xalqımızın igid övladlarının qanı-canı bahasına qazanılıb. Müharibədə Silahlı Qüvvələrimizin hərbi qulluqçularından 2907 nəfər şəhid olub. Şəhidlərimizin və qazilərimizin qəhrəmanlığı dövlətimiz və xalqımız tərəfindən yüksək qiymətləndirilir. Sentyabrın 27-si Prezidentin Sərəncamı ilə şəhidlərimizin xatirəsinə Anım Günü elan olunub. Xalqımız və bütün dünya azərbaycanlıları şəhidlərin əziz xatirəsini ehtiramla yad edir.



Döyüşlərdə iştirak etmiş on minlərlə hərbçi Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla orden, medal və fəxri adlarla təltif olunub. Habelə 83 nəfər "Vətən Müharibəsi Qəhrəmanı" adına, 33 nəfər isə "Zəfər" ordeninə layiq görülüb.

Dekabrın 10-da Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəsinə həsr olunmuş Zəfər Paradı keçirildi. Paradda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və ölkələrimiz arasındakı qardaşlığın bariz nümunəsi kimi Vətən müharibəsində şəhid olan azərbaycanlıların sayı qədər türk əsgərlər iştirak etdilər. Zəfər Paradında müzəffər Azərbaycan Ordusunun şəxsi heyətinin və hərbi texnikasının, habelə ələ keçirilən hərbi qənimətlərin bir qismi və Şuşaya sancılmış Qələbə Bayrağı nümayiş etdirildi.

Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin təbliği, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması istiqamətində işlər davam etdirilir. Düşmən üzərində qələbənin təbliği məqsədilə Bakıda açılan Hərbi Qənimətlər Parkı hər bir azərbaycanlıda sonsuz iftixar və qürur hissi yaradır.

## Şanlı qələbənin təməli: xalq-dövlət-ordu birliyi

Müharibələrdə böyük qələbələrin əsasında duran ən başlıca amil xalq-dövlət-ordu birliyinin sarsılmaz vəhdətinin təmin olunmasıdır. İkinci Qarabağ müharibəsi dünya azərbaycanlılarının birliyinin sarsılmazlığını, xalqımızın Vətən torpaqlarının azad edilməsi naminə "Dəmir yumruq" kimi birləşdiyini nümayiş etdirdi. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, habelə Azərbaycanın haqq işinə dəstək verən digər xalqların nümayəndələri erməni lobbisinin



apardığı çirkin kampaniyalara qarşı fədakarlıqla fəaliyyət göstərirdilər. Müharibənin gedişində xalq-dövlət-ordu birliyi daha da möhkəmləndi. Azərbaycanın bütün vətəndaşları etnik, sosial, dini baxımdan bütövlük nümayiş etdirdi, ön və arxa cəbhədə mükəmməl birlik yarandı.

Dövlətimizin başçısının yüksək siyasi məharəti sayəsində diplomatik cəbhədə də böyük uğurlar qazanıldı. Prezident İlham Əliyev müharibə dövründə dünyanın ən böyük media qurumlarına 30-dan çox müsahibə verdi, münaqişə ilə bağlı əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırdı. Bir sıra beynəlxalq təşkilatlar və Azərbaycana dost ölkələr ədalətli mübarizəmizdə ölkəmizə böyük dəstək verdilər. Bu sırada Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, qardaş Türkiyə, eləcə də Pakistan, İsrail, Ukrayna və digər ölkələrin adını çəkmək olar. Qoşulmama Hərəkatına üzv ölkələrin nümayiş etdirdikləri prinsipial mövqe sayəsində Vətən müharibəsi zamanı BMT Təhlükəsizlik Şurasında ölkəmizin mənafeyinə zidd olan qətnamə layihəsinin qəbul edilməsinin qarşısı alındı.

## Zəfər ardınca zəfər: "Böyük qayıdış"a doğru inamlı addımlar atılır

Vətən müharibəsində qazanılmış Zəfərdən dərhal sonra azad olunmuş ərazilərin bərpasına başlanılıb. Qələbədən sonra Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın həmin ərazilərə çoxsaylı səfərləri zamanı yeni infrastruktur obyektlərinin təməli qoyulur, yeni layihələrə start verilir. Böyük qələbənin rəmzi olan və Şuşaya çəkilən Zəfər yolu artıq başa çatmaq üzrədir. Şuşada, Cıdır düzündə 27 ildən sonra ilk Novruz tonqalının alovlandırılması, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xarıbülbül" musiqi festivalının və Vaqif Poeziya Günlərinin təşkili, Prezident İlham Əliyevin Qarabağın hava qapısı adlandırdığı Füzuli Beynəlxalq Aeroportunun uçuş-eniş zolağının istifadəyə verilməsi, Zəngilanda "ağıllı kənd"in inşasına başlanması keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdacaqları günün uzaqda olmadığını göstərir.

Prezident İlham Əliyev çıxışlarının birində bu barədə deyib: "Biz sübut etdik ki, biz böyük xalqıq. Biz sübut etdik ki, biz həmrəylik göstəririk, birlik göstəririk və bu birlik onsuz da cəmiyyətdə var idi. Ancaq bu zəfərdən sonra bu, daha da yüksək səviyyəyə qalxdı. Bu birlik bizə imkan verəcək ki, işğaldan azad edilmiş torpaqlara yenidən həyat qaytaraq, məcburi köçkünlərimizi o yerlərə maksimum qısa müddət ərzində qaytaraq. Qarabağ bölgəsi, gözəl tarixi diyarımız sanki yenidən doğulacaq, yenidən canlanacaq, dirçələcək. Azərbaycanın ayrılmaz hissəsi və ən gözəl güşələrindən biri olan Qarabağ əsl cənnət məkanına çevriləcəkdir".

**AzərTAc**



# Dövlət müstəqilliyimizin bərpasının otuzuncu ildönümü ilə bağlı Ədliyyə Nazirliyinin Kollegiya iclası keçirilib






**1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyimizin bərpasından otuz il ötür. Xalqımız bu ilki bayramı Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin yenilməz sərkərdəliyi ilə Vətən müharibəsində qazanılmış Böyük Qələbə sevinci ilə, Qalib Xalq kimi qeyd edir.**

Oktyabrın 15-də dövlət başçısının qanunvericilik təşəbbüsü ilə Milli Məclis tərəfindən "Müstəqillik Günü haqqında" yeni Qanun qəbul olunaraq dövlətçilik tariximizdə müstəsna əhəmiyyətə malik olan müstəqilliyin əldə edilməsi və bərpası kimi əlamətdar günlərə onların mahiyyəti və məzmununa uyğun daha dəqiq və dolğun qiymət verilib və 18 oktyabr - Müstəqilliyin Bərpası Günü, 28 may - Müstəqillik Günü kimi təsis edilib.

Dövlət müstəqilliyimizin bərpasının otuzuncu ildönümü münasibətilə oktyabrın 15-də Ədliyyə Nazirliyi Kollegiyasının videoformatda xüsusi iclası keçirilib.

Tədbiri açan ədliyyə naziri Fikrət Məmmədov 1918-ci il mayın 28-də Şərqdə ilk demokratik dövlət quruluşu kimi yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin müstəqillik tariximizin başlanğıcı olduğunu vurğulayıb, həmin illərdə Parlamentin yaradıldığını, dövlət atributlarının müəyyən edildiyini, ana dilinin dövlət dili elan olunduğunu, vətəndaşlara bərabər hüquqların verildiyini, hüquq sisteminin formalaşdırıldığını qeyd edərək Azərbaycanın dünyada müstəqil dövlət kimi tanındığını diqqətə çatdırıb.

Bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşasa da, onun şüurlarda bərqərar etdiyi azadlıq ideyası unudulmamış, 1991-ci ildə xalqımız dövlət müstəqilliyini yenidən bərpa edərək Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olduğunu bəyan etmişdir. İlk illərdə respublikamızın məruz qaldığı hərbi təcavüz, habelə vətəndaş müharibəsi astanasında olan ölkə daxilində anarxiyanın, hərc-mərcliyin hökm sürməsi xalqımızı yenicə əldə etdiyi müstəqilliyi itirmək təhlükəsi qarşısında qoymuşdu.

Nazir belə bir ağır şəraitdə xalqın təkidli tələbi ilə 1993-cü ildə respublika rəhbərliyinə qayıdan ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyası, cəsarətli və sarsılmaz iradəsi ilə xalqımızı və dövlətimizi böyük təhlükələrdən qurtaraq müstəqilliyimizi dönməz və əbədi etdiyini xüsusi qeyd edib. Müstəqilliyimizin Heydər Əliyev dövrü ölkəmizdə qanunçuluğun, ictimai-siyasi sabitliyin bərqərar olması, "Əsrin müqaviləsi"nin imzalanması ilə neft strategiyasının təməlinin qoyulması, demokratik hüquqi dövlət quruculuğunun

geniş vüsət alması, suveren Azərbaycanın əsas qanunu olan Konstitusiyanın qəbul edilməsi, respublikamızda hərtərəfli, o cümlədən köklü hüquqi islahatların aparılması ilə səciyyələnir.

Tədbirdə Ulu Öndərin siyasi varisi cənab İlham Əliyevin, məhz 15 oktyabr 2003-cü il tarixdə keçirilən prezident seçkilərində xalqımızın böyük etimadı ilə ölkə Prezidenti seçildiyi qeyd olunaraq dövlət başçısının son 18 il ərzində müstəqil güclü Azərbaycan dövlətinin hərtərəfli inkişafını, xalqımızın Vətən müharibəsində parlaq qələbəsini təmin etməklə müasir tariximizin qızıl səhifələrini yazdığı vurğulanıb.

Bildirilib ki, bu illər ərzində ölkəmizin sabit və təhlükəsiz şəraitdə sosial-iqtisadi tərəqqisi, iqtisadi rəqabətqabiliyyətliliyinə görə nüfuzlu beynəlxalq hesabatlarda yüksək pillələrdə qərarlaşması, o cümlədən dünyanın ən islahatçı 10 ölkəsindən birinə çevrilməsi, nəhəng qlobal enerji və nəqliyyat layihələrinin bilavasitə təşəbbüskarı olmaqla gerçəkləşdirilməsi, kosmik kluba daxil olması müstəqilliyimizin bəhrəsi olmaqla dövlətimizin başçısının məqsədyönlü siyasətinin bariz təzahürüdür.

Eyni zamanda cənab Prezidentin rəhbərliyi ilə respublikamızın hərtərəfli inkişafının ölkəmizin bölgədə və dünyada nüfuzunun artması ilə müşayiət olunduğu bildirilərək 155 dövlətin dəstəyi ilə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü, BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına uğurla, o cümlədən əlavə bir il müddətinə sədrliyi vurğulanıb. Respublikamızın ən mötəbər tədbirlərə, o cümlədən humanitar, siyasi, iqtisadi, mədəni forumlara, möhtəşəm idman yarışlarına uğurla ev sahibliyi diqqətə çatdırılaraq bu tədbirlərin yüksək səviyyədə təşkil olunması və keçirilməsində respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mühüm xidmətləri qeyd olunub.

Kollegiyada xalqımızın müstəqillik illərindəki ən böyük tarixi nailiyyəti olan Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində Böyük Qələbənin qazanıldığı, torpaqlarımızın işğaldan azad edilərək tarixi ədalətin bərpa olunduğu xüsusilə vurğulanıb. Dövlət başçısının qeyd etdiyi kimi, "Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq zəfər olmamışdır".

Bu qələbənin təməlində ölkə Prezidentinin güclü iradəsi, müstəqil və düşünülmüş siyasəti, yenilməz sərkərdəlik və diplomatik məharəti, xalqımızı dəmir yumruq kimi sıx birləşdirməsi dayanır. Dövlət başçısı son 18 ildə ordu quruculuğunu, müdafiə sənayesini inkişaf etdirərək Azərbaycan Ordusunu, Vətən müharibəsində bütün dünyaya nümayiş etdirdiyi kimi, ən müasir silah və hərbi texnika ilə təchiz olunmaqla dünyanın ən güclü 50 ordusundan birinə çevirib.

Ədliyyə naziri Vətən müharibəsindən sonra ölkəmizin azad edilmiş torpaqlarda aparılan intensiv bərpa-quruculuq işləri ilə dünyanın diqqətini cəlb etdiyini vurğulayaraq, qısa müddətdə cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə genişmiqyaslı yenidənqurma işlərinin aparıldığını, respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın nəcib təşəbbüsləri ilə bu istiqamətdə mühüm layihələrin gerçəkləşdirildiyini bildirib. Qeyd edib ki, Qarabağ və Şərqi Zəngəzurda qısa müddətdə yol-nəqliyyat, enerji, sosial infrastrukturların yenidən qurulması, Ermənistan tərəfindən işğal dövründə tamamilə dağıdılmış tarixi, dini və mədəni abidələrimizin bərpası, "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin tətbiqi dövlətimizin qüdrətinin və möhkəm iqtisadi potensiala malik olmasının əyani göstəricisidir.

Eyni zamanda, Vətən müharibəsi şəhidlərinin xatirəsinin və misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə mühüm addımların atıldığı, o cümlədən Anım Günü və Zəfər Gününün təsis edildiyi, Hərbi Qənimətlər Parkının yaradıldığı, Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməlinin qoyulduğu qeyd olunub, şəhid ailələrinin və qazilərinin yüksək dövlət qayğısı ilə əhatə olunduğu bildirilib.

Bununla yanaşı, dövlət başçısının qəti iradəsi ilə bütün dünyanı bürüyən COVID-19

pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması ilə bağlı görülən tədbirlər, Azərbaycanın bu qlobal bəla ilə mübarizədə nümunəvi ölkə kimi dəyərləndirilməsi qeyd edilib.

Nazir ötən dövrdə qarşıya qoyulan əsas məqsəd və hədəflərə nail olunduğunu bildirərək dövlət başçısının növbəti onillikdə ölkənin sosial-iqtisadi tərəqqisinin davamlılığını, inklüziv cəmiyyətin və müasir innovasiyaların inkişafını, işğaldan azad olunmuş ərazilərə böyük qayıdışı təmin etmək məqsədilə təsdiq etdiyi 2030-cu ilədək Milli Prioritetlərin əhəmiyyətini vurğulayıb.

Həmçinin bildirib ki, müstəqillik illərində Azərbaycan ədliyyəsi müasir inkişaf yolu keçərək ədliyyə və məhkəmə-hüquq sistemi dövlət başçısının rəhbərliyi ilə ölkəmizin hərtərəfli inkişafına və yeni çağırışlara uyğun ardıcıl islahatlar aparılmaqla təkmilləşir, milli prioritetlərə uyğun olaraq şəffaflığın artırılması, innovasiyaların tətbiqinin genişləndirilməsi üzrə davamlı tədbirlər həyata keçirilir.

Tədbirdə cəmiyyət həyatının bütün sahələrinin inkişafı üzrə müəyyən edilmiş prioritetlərin, xüsusilə torpaqlarımızın işğaldan azad edilməsinin ölkəmiz üçün yeni imkanlar yaratdığı bildirilərək dövlət başçısının həyata keçirdiyi müdrik və uzaqgörən siyasətinin, strateji hədəflərin və mühüm çağırışların, həyata keçirilən nəhəng işlərin insanlara düzgün çatdırılması, hadisələrə dərhal və tutarlı münasibət bildirilməsi, Azərbaycan həqiqətlərinin təbliği və Ermənistanın qanunsuz əməllərinin ifşası ilə bağlı beynəlxalq müstəvidə daha fəal iş aparılması vurğulanıb. Bu məqsədlə ictimaiyyətlə əlaqələr sahəsində işin çevik və səmərəli qurulması, media və vətəndaş cəmiyyəti ilə fəaliyyətin vahid strategiya əsasında təşkili üzrə görülən işlər qeyd olunub, ədliyyə sahəsində daha effektiv kommunikasiya siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər müəyyən edilib.

Kollegiyada ölkə Prezidentinin tapşırıqlarından irəli gələn nazirliyin vəzifələrinin icrası müzakirə olunub, ədliyyə işçiləri tərəfindən dövlətimizin başçısının insanlara layiqli xidmət, vətəndaş məmnuniyyəti, şəffaflıq, hər bir məmurun nümunəvi davranışı, həmçinin korrupsiyanın yolverilməzliyi kimi tələbləri daim rəhbər tutulmaqla qanunçuluğa, nizam-intizama və etik davranış qaydalarına dönmədən əməl olunmasının vacibliyi vurğulanıb, ictimai nəzarətin, maliyyə intizamının gücləndirilməsi, dövlət vəsaitlərindən qənaətlə istifadə edilməsi və s. ilə bağlı tapşırıqlar verilib.

# Avropa ədliyyə nazirlərinin konfransı keçirilib

**Oktyabrın 4-5-də Macarıstanın Avropa Şurası Nazirlər Komitəsində sədrliyi çərçivəsində Budapeştdə "Rəqəmsal texnologiyalar və süni intellekt - Avropada ədalət mühakiməsi üçün yeni çağırışlar" mövzusunda Avropa ədliyyə nazirlərinin konfransı keçirilib.**

Tədbirdə ölkəmizi ədliyyə naziri Fikrət Məmmədov təmsil edib.

Konfransın açılışında Avropa Şurasının baş katibi Mariya Peyçinoviç Buriç, Macarıstanın ədliyyə naziri Yudit Varqa giriş sözü ilə çıxış ediblər. Tədbirdə rəqəmsal dövrdə ədalət mühakiməsinə əlçatanlıq, bu sahədə funksionallığın artırılması və süni intellektin tətbiqi kimi aktual məsələlər müzakirə olunub, nazirlər tərəfindən innovasiyalara və yaxşı təcrübələrə dair təqdimatlar keçirilib.

Çıxış edən Azərbaycanın ədliyyə naziri dünyada hökm sürən qlobal pandemiyanın ədalət mühakiməsinin rəqəmsallaşması prosesini daha da şərtləndirdiyini qeyd edərək Avropa məhkəmə sistemlərinin getdikcə kağız formatından elektron prosedurlara keçdiyini bildirib, Azərbaycanda dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatlarından, o cümlədən bu sahədə innovasiyaların tətbiqindən



danışıb, beynəlxalq aləmdə təqdir olunan müsbət təcrübəmizlə bölüşüb.

Bildirib ki, Azərbaycanda İKT-nin inkişafı, rəqəmsal dövrə keçid 2030-cu ilədək sosial-iqtisadi tərəqqinin əsas prioritetlərindən olmaqla məhkəmə-hüquq islahatları çərçivəsində Dünya Bankının iştirakı ilə məhkəmə infrastrukturu müasirləşdirilərək yüksək texnoloji (hi-tech) məhkəmələr yaradılıb. Artıq 10 ildən çoxdur məhkəmələrin vahid internet portalı insanlara xidmət edir, həmçinin müasir innovasiyalar tətbiq olunmaqla "Elektron məhkəmə" informasiya sistemi fəaliyyət göstərir. Bütün məhkəmələrin 2/3-ni əhatə edən bu sistemin yaxın gələcəkdə ölkə üzrə tam təmin olunması nəzərdə tutulur. Eyni zamanda bir neçə ildir ki, kommersiya mübahisələri üzrə icraat yalnız elektron qaydada aparılır.

Tədbir iştirakçıları həmçinin digər bir yenilik - "Mobil məhkəmə" tətbiqi barədə məlumatlandırılıb, onun məhkəməyə əlçatanlığı asanlaşdırdığı, kompüterə qoşulmadan məlumatları dərhal əldə etməyə, prosesdə mobil qaydada iştiraka imkan verdiyi diqqətə çatdırılıb.

Nazir çıxışında ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış Böyük Qələbə nəticəsində 30 illik erməni işğalından azad edilmiş və Ermənistan tərəfindən tamamilə dağıdılmış torpaqlarımızda aparılan nəhəng bərpa-quruculuq işləri çərçivəsində rəqəmsal texnologiyalar tətbiq olunmaqla "ağıllı şəhər" və "ağıllı kənd"-lərin yaradılmasını qeyd edib.

F.Məmmədov konfrans iştirakçılarının diqqətini xüsusilə yenidənqurma prosesinə ciddi mane olan Ermənistan tərəfindən işğal dövründə ərazilərimizin minalanmasına cəlb edərək bununla Azərbaycanın dünyada ərazilərinin ən çox minalandığı ölkələrdən biri olduğunu vurğulayıb.

Mülki insanların həmin minalara düşərək həlak olması və ya yaralanması nəzərə alınaraq əhali arasında yeni qurbanların qarşısını almaq naminə beynəlxalq ictimaiyyət Ermənistanın mina xəritələrini verməsi üçün təsir etməyə çağırılıb.

Konfrans çərçivəsində həmçinin, bir çox dövlətlərin ədliyyə nazirləri ilə görüşlər keçirilib, əməkdaşlığa dair faydalı fikir və təcrübə mübadiləsi aparılıb. Konfrans və görüşlər zamanı Azərbaycanda məhkəmə-hüquq islahatlarına və bu sahədə nailiyyətlərinə böyük maraq göstərilib.

Tədbirlərdə Azərbaycanın Macarıstandakı səfiri Tahir Tağızadə iştirak edib.



# Ölkəmizin beynəlxalq hüquqi sahədə əlaqələri genişlənir

**Ədliyyə naziri Fikrət Məmmədov Macarıstanın paytaxtı Budapeştdə keçirilən Avropa ədliyyə nazirlərinin konfransı çərçivəsində tədbirdə iştirak edən Macarıstan və Türkiyə ədliyyə nazirləri, Estoniyanın nümayəndə heyətinin rəhbəri ilə ikitərəfli görüşlər keçirib.**

Macarıstanın ədliyyə naziri Yudit Varqa ilə keçirilmiş görüşdə ölkələrimiz arasında dostluq və səmərəli əməkdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olunub, hüquqi əlaqələrimizin genişləndirilməsində imzalanmış Anlaşma Memorandumunun əhəmiyyəti vurğulanıb. Ədliyyə və məhkəmə sahəsində əməkdaşlığın perspektivlərinə dair faydalı fikir mübadiləsi aparılaraq macarıstanlı nazir ölkəmizin nailiyyətlərinə maraq göstərib, bu sahədə müsbət təcrübəmizlə tanış olmaq barədə niyyətini bildirib.

Post-konflikt dövründə görülən işlərlə bağlı məlumat verən Azərbaycanın ədliyyə naziri Vətən müharibəsində Macarıstanın ədalətli münasibətini xüsusi qeyd edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə və suverenliyinə, eləcə də azad edilmiş ərazilərimizdə bərpa və mina təmizləmə işlərinə göstərdiyi dəstəyi təqdir edib.



*Macarıstanın ədliyyə naziri Yudit Varqa ilə görüş*




*Türkiyənin ədliyyə naziri Abdulhamit Gül ilə görüş*

Səfər zamanı Türkiyənin ədliyyə naziri Abdulhamit Gül ilə görüş olub.

Dost və qardaş ölkələrimiz arasında əlaqələrin müttəfiqlik münasibətlərinə uyğun inkişafının vurğulandığı görüşdə bu əlaqələrin möhkəmləndirilməsində Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın xüsusi rolu qeyd edilib.

Azərbaycanın ədliyyə naziri Vətən müharibəsində Türkiyə Prezidenti başda olmaqla türk xalqının, qardaş ölkənin bütün yüksək rəsmi şəxslərinin, o cümlədən həmkarı Abdulhamit Gülün mənəvi dəstəyini vurğulayıb. Türkiyə Prezidentinin Şuşaya səfəri zamanı Azərbaycan-Türkiyə arasında imzalanmış müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin müstəsna siyasi və tarixi əhəmiyyətə malik olmaqla müxtəlif sahələrdə əməkdaşlıq üçün yeni imkanlar açdığını qeyd edib. Xatırladıb ki, Şuşa Bəyannaməsi rəhbər tutularaq iki ölkənin Ədliyyə akademiyaları arasında imzalanmış Anlaşma Memorandumu ilk sənədlərdən olmaqla əlaqələrimizin dərinləşməsinə xidmət edir.

Vətən müharibəsində Böyük Qələbə münasibətilə bir daha təbrikini ifadə edən A.Gül türk dövlətlərinin ədliyyə və

məhkəmə sahəsində nailiyyətlərinin dünyada yayılması və təbliğinin əhəmiyyətinə toxunaraq bu məqsədlə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində Ədliyyə nazirliklərinin əməkdaşlığı ilə bağlı niyyətini bildirib.

Macarıstana səfər çərçivəsində həmçinin, Azərbaycan və Estoniya Ədliyyə nazirlikləri arasında Əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Ölkə Prezidentinin Sərəncamı ilə verilmiş səlahiyyətə əsasən sənədi ədliyyə naziri Fikrət Məmmədov, Estoniya nümayəndə heyətinin rəhbəri, Ədliyyə Nazirliyinin vitsekansleri Vilyar Piip imzalayıb.

Memorandum məhkəmə və ədliyyə sahəsində əməkdaşlığı, təcrübə mübadiləsini, mediasiya institutunun, e-ədliyyənin






*Azərbaycan və Estoniya Ədliyyə nazirlikləri arasında Əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması*

və e-məhkəmənin təşviqini, ədliyyə işçilərinin və hakimlərin təlimini və digər sahələrdə birgə tədbirləri nəzərdə tutur.

Tərəflər imzalanan sənədin qarşılıqlı fəaliyyətə mühüm töhfə verəcəyi, hüquqi sahədə təcrübə mübadiləsinin hər iki tərəf üçün faydalı olacağını bildiriblər.

Keçirilən görüşlərdə Vətən müharibəsində qazanılmış Böyük Qələbə nəticəsində azad edilmiş torpaqlarımızda aparılan nəhəng bərpa-quruculuq işlərindən bəhs olunub, həmsöhbətlərin diqqəti xüsusilə yenidənqurma prosesinə ciddi mane törədən və mülki insanlar arasında qurbanlara səbəb olan Ermənistan tərəfindən işğal dövründə ərazilərimizin minalanması faktına cəlb edilib.

Tədbirlərdə Azərbaycanın Macarıstandakı səfiri Tahir Tağızadə iştirak edib.

# Avropa Şurası məhkəmə-hüquq sahəsində islahatları maraqla qarşılayır

**Oktyabrın 28-də ədliyyə naziri Fikrət Məmmədov Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi üzrə baş direktoru Xristos Cakumopulosun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin yenilməz sərkərdəliyi ilə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad olunduğunu bildirən nazir 30 ildən bəri hüquqları kobud şəkildə pozulmuş məcburi köçkünlərimizin qayıdışı ilə bağlı həmin ərazilərdə nəhəng bərpa-quruculuq işlərinin aparıldığını vurğulayıb.

Eyni zamanda dövlət başçısının rəhbərliyi ilə məhkəmə-hüquq islahatlarının uğurla davam etdiyi, bu sahədə beynəlxalq tərəfdaşlar, o cümlədən Avropa Şurası ilə əlaqələr və birgə layihələrin təşviqi qeyd olunub, son illər həyata keçirilən tədbirlərə və yeniliklərə maraq göstərilib. Qonaqlar qanunvericiliyin təkmilləşdirilməsi, məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanlarının fəaliyyəti, yüksək texnoloji - "hi-tech" məhkəmələrin yaradılması, "Elektron məhkəmə" informasiya sisteminin geniş tətbiqi, hakimlərin Avropa Şurası tərəfindən örnək kimi dəyərləndirilən ən şəffaf seçiminin davamlı xarakter alması barədə məlumatlandırılıb.

Bildirilib ki, məhkəmə fəaliyyətinin səmərəliliyinin, bu




sahədə şəffaflığın artırılması ilə bağlı ardıcıl tədbirlər görülür, vahid məhkəmə təcrübəsinin, xüsusilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqinə mühüm önəm verilir, bu məqsədlə Ədliyyə Akademiyasında hakimlərin və vəkillərin davamlı tədrisi keçirilir.

Ölkəmizə səfərindən xoş təəssüratını bölüşən X.Cakoumoulos Avropa Şurasının 2022-2025-ci illər üçün nəzərdə tutulan Fəaliyyət Planının əməkdaşlıq üçün yeni imkanlar yaradacağını bildirib, Ədliyyə Nazirliyi ilə səmimi və faydalı qarşılıqlı fəaliyyəti, birgə layihələri qeyd edib, həyata keçirilən mütərəqqi islahatları təqdir edərək onların daha geniş ictimaiyyətə çatdırılmasının önəmini vurğulayıb. Cari ilin dekabrında İtaliyanın Avropa Şurası Nazirlər Komitəsində sədrliyi çərçivəsində Avropa ədliyyə nazirlərinin "Bərpaedici ədliyyə" mövzusunda konfransının keçiriləcəyini və orada iştirakın əhəmiyyətini qeyd edib.

X.Cakumopulos həmçinin, penitensiar sistemdə aparılan islahatları, yeni cəzaçəkmə müəssisələrinin inşasını, humanistləşdirmə tədbirlərini məmnunluqla qarşılayıb, Azərbaycanın ədliyyə sahəsində rəqəmsal innovasiyalarla bağlı təcrübəsinin digər dövlətlərə yayılmasının önəmini vurğulayıb. O, əməkdaşlığın genişləndirilməsinə və aparılan islahatlara hər cür dəstək göstərməyə hazır olduğunu bildirib.

Görüşdə İnsan hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarından ölkəmizdə icrası vəziyyəti və digər maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Tədbirdə Avropa Şurasının Bakı Ofisinin rəhbəri, səfir Zoltan Hernyeş iştirak edib.

# Məhkəmə-Hüquq Şurasının iclası keçirilib

**Oktyabrın 26-da Məhkəmə-Hüquq Şurasının videokonfrans formatında iclası keçirilib. Çıxış edən Şuranın sədri, ədliyyə naziri Fikrət Məmmədov bu ərəfənin əlamətdar bayramlara təsadüf etdiyini, bir neçə gün öncə müstəqilliyimizin bərpasının 30-cu ildönümünün qeyd edildiyini, habelə qarşıdan Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində Böyük Qələbəmizin təcəssümü olan Zəfər Gününün gəldiyini bildirib.**

Müstəqilliyimizin bərpasının ilk illərində ölkəmizin məruz qaldığı hərbi təcavüz, daxili anarxiya və hərc-mərclik, vətəndaş müharibəsi təhlükəsinin real xarakter aldığını xatırladan Şuranın sədri dövlətçiliyimizin yenidən itirilməməsi üçün xalqın təkidli tələbi ilə ümummilli lider Heydər Əliyevin 1993-cü ildə respublika rəhbərliyinə qayıtdığını vurğulayıb.






Dahi öndərin xilaskarlıq missiyası, cəsarətli və sarsılmaz iradəsi nəticəsində xalqımız və dövlətimiz üçün böyük təhlükələrin qarşısı alınaraq müstəqilliyimiz dönməz və əbədi xarakter alıb.

Məhz Ulu Öndərin siyasi varisi cənab İlham Əliyevin rəhbərliyi ilə dövlətçiliyimizin möhkəmlənməsi, ölkəmizin sürətli tərəqqisi, nəhəng enerji, nəqliyyat və digər layihələrin gerçəkləşməsi, misilsiz diplomatik uğurlar və qüdrətli ordu quruculuğu Vətən müharibəsində tarixi qələbəmizi şərtləndirib.

Azad edilmiş torpaqlarımızda cənab Prezidentin rəhbərliyi və Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın nəcib təşəbbüsləri ilə genişmiqyaslı yenidənqurma işlərinin aparılması, infrastruktur layihələrin uğurla icrası, dini və mədəni abidələrimizin bərpası dövlətimizin qüdrətini və möhkəm iqtisadi potensialını nümayiş etdirir.

Şurada dövlət başçısının növbəti onillikdə ölkənin sosial-iqtisadi tərəqqisinin davamlılığı, inklüziv cəmiyyətin və müasir innovasiyaların inkişafı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdışı təmin etmək məqsədilə təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərin" əhəmiyyəti bildirilib. Onun məhkəmə fəaliyyətində şəffaflığın artırılması üzrə qarşıda qoyduğu mühüm vəzifələrlə bağlı tədbirlər qeyd edilib.

Son dövrlər bu sahədə görülən işlər, habelə məhkəmə icraatı zamanı çevikliyin təmin edilməsi, süründürməçilik və mümkün sui-istifadə hallarının qarşısının alınması məqsədilə yeni qanunların qəbulu, o cümlədən mülki-prosessual qanunvericiliyə mütərəqqi dəyişikliklərin edilməsi, elektron sistemlərin məhkəmə icraatında geniş tətbiqi, yüksək texnoloji - "hi-tech" məhkəmələrin inşası diqqətə çatdırılıb, yeni fəaliyyətə başlamış mediasiya institutunun əhəmiyyəti vurğulanıb.

Şurada məhkəmə sistemində şəffaflığın artırılması və hakimlərin müstəqilliyinin möhkəmləndirilməsi üzrə, habelə bu sahədə beynəlxalq tərəfdaşların, o cümlədən Avropa Şurasının tövsiyələrinə uyğun olaraq əlavə tədbirlər müəyyən edilib.

İclasda həmçinin hakimlərin fəaliyyətinin hərtərəfli və prinsipial qiymətləndirilməsi məqsədilə Şura tərəfindən təsdiq edilmiş yeni Qaydalara uyğun olaraq cari ildə 117 hakimin fəaliyyətinin qiymətləndirildiyi, 14 nəfərin fəaliyyətində peşəkar çatışmazlıqlar müəyyən olunaraq işdə dönüş yaratmaları üçün 6 ay vaxt verildiyi, 3 nəfərin isə səlahiyyətlərinə xitam verildiyi bildirilib.

Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi Qaydalarının yeni qanunvericiliyə uyğun təkmilləşdirilməsi ilə bağlı müvafiq qərar qəbul edilib. Bu ilin sonunadək fəaliyyətlərinin qiymətləndirilməsi nəzərdə tutulmuş daha 120 hakimlə bağlı hərtərəfli təhlillərin aparılması və nəticələrin Şuranın iclasına çıxarılması üzrə konkret tapşırıqlar verilib.

Şuranın iclasında qanunvericiliyin tələblərinin, çəkişmə prinsipinin və icra intizamının pozulmasına, süründürməçiliyə yol verildiyinə və digər nöqsanlara görə birinci instansiya və apellyasiya məhkəmələrinin 5 hakiminin intizam məsuliyyəti məsələsinə baxılıb, eyni xarakterli pozuntulara görə bir sıra hakimlər barədə intizam icraatları başlanılıb.

# Vətən müharibəsində şəhid olan ədliyyə işçisi Ruhin Xəlilovun anım günü keçirilib





**Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Böyük Qələbə ilə başa çatan Vətən müharibəsində ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş qəhrəman övladlarımızın şücaəti xalqımız tərəfindən daim yüksək qiymətləndirilir, şəhidlərimizin xatirəsinə dərin ehtiram əlaməti olaraq dövlət başçısı tərəfindən Anım Günü təsis edilib, Vətən Müharibəsi Memorial Kompleksinin təməli qoyulub.**










Eyni zamanda müharibə iştirakçılarına, şəhid ailələrinə və qazilərimizə hərtərəfli dövlət qayğısı göstərilərək, onların sosial müdafiəsinin və rifahının yaxşılaşdırılması ilə bağlı məqsədyönlü tədbirlər görülür.

Ədliyyə Nazirliyi tərəfindən şəhid ailələrinə, yaralananlara və hərbçilərimizə ilk gündən lazımi dəstək göstərilir, onların müraciətlərinə xüsusi həssaslıqla yanaşılaraq qaldırılan məsələlərin həlli üzrə zəruri tədbirlər görülür.

Vətən müharibəsində 100-dən çox ədliyyə və məhkəmə işçisi, o cümlədən könüllü iştirak edərək fədakarlıq göstərib, ölkə Prezidenti tərəfindən çoxsaylı medallarla təltif olunub, həmçinin nazirlik tərəfindən onların qayğıları daim diqqət mərkəzində saxlanılır.

Müharibənin ilk günlərindən könüllü cəbhəyə yollanan əməkdaşlardan Ədliyyə Nazirliyi İcra baş idarəsinin məsləhətçisi I dərəcəli ədliyyə qulluqçusu Ruhin Xəlilov torpaqlarımızın azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda - Qubadlı rayonu ətrafında gedən döyüşlərdə mərdlik və şücaət nümayiş etdirərək oktyabrın 21-də şəhid olub.

Ruhin Xəlilov ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.

Eyni zamanda ona nazirlik

tərəfindən "Fəxri ədliyyə işçisi" adı verilib, Ədliyyə tarixi muzeyində, həmçinin ədliyyə orqanlarında onun fəaliyyət göstərdiyi iş otaqlarında foto və sənədlərdən ibarət xatirə guşələri yaradılıb, barəsində xüsusi reportajlar, sənədli filmlər hazırlanaraq nümayiş etdirilib.

İkinci Fəxri xiyabanda dəfn olunmuş R.Xəlilovla bağlı nazirlik tərəfindən silsilə tədbirlər keçirilir, məzarı ziyarət olunaraq əziz xatirəsi daim yad edilir.

Həmçinin ailəsinin qayğıları və sosial rifahı nazirlik tərəfindən daim diqqətdə saxlanılır, şəhid əməkdaşın həyat yoldaşı nazirlikdə qulluğa qəbul edilib.

Oktyabrın 21-də Ruhin Xəlilovun şəhid olmasının ildönümü ilə əlaqədar ədliyyə naziri Fikrət Məmmədov və nazirliyin rəhbər heyəti İkinci Fəxri xiyabanda şəhidin məzarını ziyarət edərək, əziz xatirəsini ehtiramla yad ediblər. Ziyarətdə həmçinin, yerli icra hakimiyyəti orqanlarının rəhbərliyi, hərbçilər, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasimdə ədliyyə naziri Müzəffər Ali Baş Komandan İlham Əliyevin yenilməz sərkərdəliyi ilə xalqımızın parlaq zəfər qazandığı Vətən müharibəsində dövlətimizin hərbi-siyasi uğuru və ordumuzun şücaəti sayəsində, şəhidlərimizin qanı və canı bahasına torpaqlarımızın işğaldan azad edildiyini, Ruhin və onun kimi qəhrəmanlarımızın qanının yerdə qalmadığını vurğulayıb, dövlət başçısı və respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən şəhid ailələrimizin və yaralı hərbçilərimizə daim yüksək qayğı göstərildiyini qeyd edib.

Nazir R.Xəlilovun xidmətdəki yüksəlişindən, insani və iş keyfiyyətlərindən, əsl vətəndaş mövqeyindən bəhs edib, ona Allahdan rəhmət, ailəsinə səbr diləyib.

Nazirlikdə R.Xəlilovun ailə üzvlərinin, gənc ədliyyə işçilərinin və könüllülərinin iştirakı ilə hibrid formada keçirilən "Şəhid Ruhin Xəlilovun mərdliyi və şücaəti ədliyyə gənclərinə örnəkdir" mövzusunda tədbirdə onun vətənpərvərliyindən, həyat və döyüş yolundan danışılıb, zəhmətsevərliyi, kollektivlə davranışı, səmimi münasibəti ilə bağlı xatirələr bölüşülüb.

Şəhidin ailə üzvləri həmçinin nazirlikdə R.Xəlilovun iş otağındakı xatirə guşəsi ilə tanış olublar.

# Penitensiar xidmətin əməkdaşları "Qarabağın bərpa, yenidənqurma və inkişafı" sərgisində

**Oktaybrın 20-də Ədliyyə Nazirliyi Penitensiar xidmətinin bir qrup əməkdaşı "Baku Ekspo" Mərkəzində "Caspian Event Organisers" şirkətinin təşkilatçılığı ilə keçirilən Birinci Azərbaycan Beynəlxalq "Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı" sərgisinə baş çəkiblər.**








Müxtəlif ölkələrin şirkətlərinin təmsil olunduğu sərgidə bank və investisiyalar, hasilat sənayesi, səhiyyə, informasiya texnologiyaları, təhsil, qida sənayesi, kənd təsərrüfatı, inşaat, yol tikintisi və infrastruktur turu, nəqliyyat, turizm, mədəni irs, energetika, ekologiya kimi müxtəlif sahələr üzrə xidmət və məhsullar təqdim olunub.

İşğaldan azad olunmuş ərazilərimizdə sürətli bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi baxımından müxtəlif sektorlar üzrə təcrübə və innovativ həll variantlarını bir platformada birləşdirən sərgi maraqla qarşılanıb.

# Gənc hüquqşünaslar ədliyyə orqanlarına qulluğa qəbul olunub

**Ölkə Prezidenti cənab İlham Əliyevin yeni çağırışlara uyğun həyata keçirdiyi hərtərəfli, o cümlədən struktur və kadr islahatları çərçivəsində savadlı, müasir dünyagörüşlü gənclər dövlət idarəçiliyinə irəli çəkilir, onların ictimai-siyasi həyatda fəallığı, təşəbbüskarlığı artır, vətənpərvərlik ruhu və vətəndaşlıq mövqeyi daha da möhkəmlənir. Respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəal iştirakı ilə istedadlı gənclərin dəstəklənməsi, onların innovativ potensiallarının və bacarıqlarının üzə çıxarılması istiqamətində mühüm tədbirlər görülür.**

Cəmiyyətimizin aparıcı qüvvəsinə çevrilən gənclər ədliyyə sahəsində də geniş təmsil olunurlar. Ölkə başçısının tapşırıqlarına uyğun olaraq ədliyyə orqanlarında kadrlarla işin səmərəli təşkilinə, gənclərin işlə təminatına xüsusi önəm verilərək qulluğa qəbulla bağlı mütəmadi müsabiqələr keçirilir, ədliyyə orqanlarının kadr korpusu zəruri peşə keyfiyyətlərinə malik hüquqşünaslarla komplektləşdirilir.

Bununla əlaqədar nazirliyin bölgələrdə yerləşən icra və probasiya, həmçinin qeydiyyat qurumlarında vakant ştat vahidləri üzrə keçirilən növbəti müsabiqəyə yekun vurulub.



Uğur qazanmış namizədlər Ədliyyə Akademiyasında icbari təlimə cəlb olunub, o cümlədən müvafiq ədliyyə sahələri üzrə yerli qurumlarda təcrübə keçiblər.

Tam əksəriyyəti gənclər olan 49 hüquqşünas Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin yenilməz sərkərdəliyi ilə Vətən müharibəsində qazanılmış Böyük Qələbənin sevincini yaşadığımız bu günlərdə ədliyyə orqanlarına qulluğa qəbul olunaraq barələrində müvafiq təyinatlar aparılıb.

Yeni əməkdaşlarla Ədliyyə Nazirliyi rəhbərliyinin və aidiyyəti baş idarə rəislərinin görüşləri keçirilib.

Tədbirlərdən əvvəl onlar Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək, abidəsi önünə əklil qoyub, əziz xatirəsini dərin ehtiramla yad ediblər. Sonra Şəhidlər və II Fəxri xiyabanlarda xalqımızın azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman övladlarımızın, o cümlədən Vətən müharibəsində şəhid olmuş ədliyyə işçisi Ruhin Xəlilovun xatirəsi anılıb, məzarları önünə tər çiçəklər qoyulub.

Nazirlikdə keçirilən tədbirlərdə dövlətimizin gənc nəslin hərtərəfli inkişafına qayğısından bəhs edilib, ölkə başçısı cənab İlham Əliyevin hüquq-mühafizə orqanları işçiləri qarşısında qoyduğu tələblər diqqətə çatdırılıb, qanunun aliliyi və dövlətçiliyə sədaqət prinsiplərini hər şeydən üstün tutmaları və xidməti vəzifələrinin icrası ilə bağlı gənclərə zəruri tapşırıqlar verilib.

Yeni qulluğa qəbul olunanlar Vətən müharibəsinin zəfər günlərində qulluğa qəbul olunmalarından yüksək qürur hissi keçirdiklərini bildirib, ədliyyə qulluqçusu kimi dövlət başçısının ətrafında sıx birləşərək ölkəmizin hərtərəfli tərəqqisinə və qüdrətlənməsinə sədaqətlə xidmət edəcəklərini vurğulayıb, onlara göstərilən yüksək etimadı fəaliyyətləri ilə doğruldacaqlarına, vəzifələrini vicdanla yerinə yetirəcəklərinə, ədliyyə

işçisi adını şərəflə daşıyacaqlarına söz veriblər.

Sonra gənc hüquqşünaslar Azərbaycan Respublikasının Dövlət Bayrağı önündə təntənəli qaydada and içiblər, onlara xidməti vəsiqələr verilib.

Eyni zamanda nazirliyin Müsabiqə Komissiyası bildirir ki, bölgələrdə yerləşən icra və probasiya, həmçinin qeydiyyat qurumlarında işləmək arzusunda olan ali hüquq təhsilli Azərbaycan Respublikası vətəndaşlarının ərizələrinin qəbulu davam edir və onlar müsabiqədə iştiraka dəvət olunurlar (elektron müraciət ünvanı:-www.exidmet.justice.gov.az, əlaqə telefonları: (012) 538-01-62, 538-08-85).

# Ədliyyə Nazirliyi Mətbuat xidmətinin məlumatı

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə çoxpartiyalı siyasi sistemin möhkəmləndirilməsi, vətəndaş cəmiyyətinin inkişafı istiqamətində genişmiqyaslı hərtərəfli islahatlar aparılır.**

Hazırda ölkədə 56 siyasi partiya fəaliyyət göstərir ki, onlardan 7-si ötən il dövlət qeydiyyatından keçib.

Görülən işlərin məntiqi nəticəsi olaraq cəmiyyətimizdə demokratik dəyərlər qüvvətlənir, ölkə həyatının bütün sahələrində siyasi partiyaların və vətəndaş iştirakçılığının rolu artır.

Bu prosesin davamı olaraq 16 qeyri-kommersiya təşkilatının, Azərbaycan Yüksəliş Partiyasının və Haqq Ədalət Partiyasının müraciətləri əsasında onların sənədlərinin qanunvericiliyin tələblərinə uyğunluğu məsələsi öyrənilib və qeydiyyata alınmaları ilə bağlı Ədliyyə Nazirliyinin 15 oktyabr tarixli növbəti Kollegiya iclasında qərar qəbul edilib.

Bununla əlaqədar sözügedən partiyaların və QHT-lərin təmsilçilərinə nazirlikdə dövlət qeydiyyatı haqqında şəhadətnamələr təqdim olunub.

# Hakimlərin Seçki Komitəsinin məlumatı

**Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03.04.2019-cu il tarixli Fərmanı ilə məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə zəruri tapşırıqlar verilib.**

Hakimlərin yüksək iş yükünün azaldılması, işlərə daha tez və keyfiyyətlə baxılması məqsədilə hakim ştatlarının sayı 200 vahid artırılıb.

Bununla əlaqədar hakimliyə namizədlərin seçimi prosesi fasiləsiz aparılmaqla sənədlərin qəbulu davamlı xarakter alıb, 700-dək namizədlə müsabiqələr keçirilib, 44 nəfər dövlət başçısının sərəncamı ilə cari ildə müxtəlif hakim vəzifələrinə təyin edilib, hazırda 125 nəfər müsabiqənin müxtəlif mərhələsindədir.

Eyni zamanda 200-dən çox hüquqşünas test imtahanında iştirak etmək üçün sənədlərini təqdim ediblər.

Hakimlərin Seçki Komitəsi bildirir ki, həmin namizədlərlə test imtahanı cari ilin noyabr ayının 5-də Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən pandemiya rejiminin tələblərinə əməl olunmaqla keçiriləcəkdir (ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Abdulvahab Salamzadə küçəsi 28). Növbəti müsabiqə üçün sənədlərin qəbulu isə fasiləsiz davam etdiriləcəkdir.

Həmçinin, namizədlərə xatırladılır ki, test imtahanı DİM tərəfindən qanunvericiliyə uyğun olaraq ödənişli keçirilir. Namizədlərin rahatlığı üçün imtahana görə ödənişin aparılması və "İmtahana buraxılış vərəqəsi"nin əldə olunması DİM tərəfindən oktyabr ayının 25-dən etibarən dim.gov.az saytı vasitəsilə həyata keçiriləcəkdir. Müsabiqə ilə bağlı "Yaddaş Kitabçası" isə Məhkəmə-Hüquq Şurasının jlc.gov.az saytından əldə edilə bilər.

Əlaqə telefonları: (012) 510-22-97; (012) 510-21-62

# Yuvenal ədliyyəyə dair görüş keçirilib

**"Yuvenal ədliyyə proqramı" çərçivəsində yetkinlik yaşına çatmayanlar arasında riskli davranışa meyillilik və qanun pozuntusu, cinayət əməli törədilməsi hallarının, keyslərin müzakirəsi ilə bağlı ümumi vəziyyətin qiymətləndirilməsi və müvafiq tədbir strategiyalarının dəyərləndirilməsi üçün Koordinasiya Şurasının ilk görüşü keçirilib.**




Koordinasiya Şurasının iclasında müvafiq nazirliklərin, komitənin, uşaq problemləri sahəsində fəaliyyət göstərən yerli icra qurumları və agentliklərin nümayəndələri iştirak ediblər. Görüşün əsas məqsədi oktyabrın 20-dən noyabrın 20-dək keçirilən "Uşaq hüquqları aylığı" ərəfəsində uşaqların hüquqlarının qorunmasına cəmiyyətin diqqətinin artırılması, son dövrlərdə uşaqlara qarşı zorakılıq hallarının qiymətləndirilməsi, cinayət törətmiş cəzaçəkən yetkinlik yaşına çatmayanların reabilitasiya və reinteqrasiyası istiqamətində fəaliyyətin müzakirəsi olub.

Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova birgə əməkdaşlıq şəraitində görülən işlər, cəzaçəkmə müəssisəsində keçirilən tədbirlərin nəticələri, ədliyyə orqanlarında əldə edilən uğurlar haqqında məlumat verib, gələcəkdə proqramın daha səmərəli inkişafı məqsədilə təkliflərini səsləndirib.

İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının nümayəndəsi Nigar Ağayeva yetkinlik yaşına çatmayanlarla işləyən polis əməkdaşları, vəkillər, hüquq-mühafizə orqanlarının əməkdaşları üçün tədbirlərin keçirildiyini, bu mövzuda xarici təcrübədən yararlanıldığını vurğulayıb. Bildirilib ki, Penitensiar Xidmət müəssisələrində olan uşaqlarla bağlı 916 - Çağrı Mərkəzinə edilən müraciətlərlə əlaqədar ətraflı araşdırma aparılır, yetkinlik yaşına çatmayanlar və valideyn görüşlərinin təşkilinə dəstək göstərilir.

Sosial Xidmətlər Agentliyinin şöbə müdiri Elmir Valehli Agentliyin Ağcabədi, Şirvan və Gəncə şəhərlərində cinayət törətmiş, baxımsız, çətin tərbiyə olunan uşaqlarla bağlı yeni fəaliyyəti haqqında məlumat verib. O, əməkdaşlığa dair birgə fəaliyyətin qurulmasını müsbət dəyərləndirərək, bundan sonra sosial işçi - kadrların təkmilləşdirilməsi istiqamətində təlimlərin təşkili haqqında təklif verib.

Azərbaycan Prokurorluğunun nümayəndəsi Vüsal Əliyev çıxışında prokurorluq orqanlarında mövzuya dair birgə əməkdaşlığın yaradılması, yetkinlik yaşına çatmayanların işlərinə dair mövcud problemlərin birgə həllinə dair təkliflə çıxış edib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin uşaq şöbəsinin nümayəndəsi çıxışında Komitənin bu sahədə fəaliyyətindən danışıb, qurumun regional mərkəzləri ilə sıx əməkdaşlığın riskli davranışa meyilli uşaqlarla işin birgə aparılmasının layihənin icrasına müsbət təsir edəcəyini bildirib.

Qeyd edək ki, cari ildən etibarən "Yuvenal ədliyyə proqramı" çərçivəsində Ədliyyə Nazirliyi və Ümidli Gələcək

Sosial Təşəbbüslər İctimai Birliyi cəzaçəkmə müəssisəsində yetkinlik yaşına çatmayanların asudə vaxtlarının səmərəli təşkili və sosial-psixoloji durumlarının yaxşılaşdırılması məqsədilə UNICEF-in Azərbaycan nümayəndəliyinin, "Pasha Holding" və "Pasha Travel" şirkətlərinin dəstəyi ilə xüsusi təlimlər təşkil edir. Layihə İctimai Birliyin nəzdində fəaliyyət göstərən Yuvenal Ədliyyə Mərkəzinin əməkdaşları tərəfindən həyata keçirilir.

# Ədliyyə Akademiyasında

## ◆ Türkdilli dövlətlərin ədliyyə akademiyaları birliyinin yaradılması məsələsi müzakirə olunub





**Oktyabrın 4-8-də Türkiyə Ədliyyə Akademiyası tərəfindən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (TDƏŞ) üzv ölkələrin ədalət mühakiməsi təhsili sahəsində təlim-tədris müəssisələri arasında əməkdaşlığı və COVİD-19 pandemiyasına qarşı mübarizədə hüquq sistemini inkişaf etdirmək məqsədilə birinci iclas təşkil olunub.**

Türkiyənin Ankara şəhərində, Hakimlər Evində keçirilən tədbirdə Azərbaycanı Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov və Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov təmsil ediblər.

TDƏŞ nəzdində Türk Ədalət Mühakiməsi Akademiyaları Birliyinin qurulması məsələsinin müzakirəsi məqsədilə keçirilən iclasda Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstan ədalət mühakiməsi təhsili sahəsində təlim-tədris müəssisələrinin rəsmiləri qatılıblar.

Türkiyə Ədliyyə Akademiyasının rəhbəri Muhittin Özdemirin sədrliyi ilə keçirilən iclasda Türkiyə ədliyyə nazirinin müavini Həsən Yılmaz, xarici işlər nazirinin müavini Yavuz Selim Kıran, Türk Şurası Baş katibinin müavini Mirvohid Azimov çıxış ediblər.

Çıxışlarda üzv dövlətlərin ortaq evləri olan Türk Şurasının qısa müddət ərzində bölgədə və dünyada hörmətli, nüfuzlu bir qurum kimi formalaşması, həyata keçirdiyi təşəbbüslər və əldə etdiyi uğurlar diqqətə çatdırılıb. Bütün çətinliklərə baxmayaraq, 2020-2021-ci illəri əhatə edən dövr türk dünyası üçün zəfər dövrü olduğu bildirilib.

Bu dövr ərzində Azərbaycanın torpaqlarını işğaldan azad etməsi, suverenliyinin və ərazi bütövlüyünün yenidən bərpa olunması kimi əldə edilən çox əhəmiyyətli nailiyyətlər, 44 gün davam edən Vətən müharibəsi zamanında Türk Şurasının bütün üzv ölkələr adından Azərbaycanın haqlı davasını ən

güclü şəkildə dəstəkləməsi və əldə edilən Zəfərin bütün dövlətlərimiz üçün qürur mənbəyinə çevrildiyi qeyd edilib.

Azərbaycan-Türkiyə əlaqələrinin ən yüksək səviyyədə olduğunu vurğulayan məruzəçilər dostluq və qardaşlıq münasibətlərimizin ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" prinsipi ilə uğurla inkişaf etdiyini, bütün türk millətləri üçün nümunə olduğunu təsdiqləyiblər.

Tədbirdə TDƏŞ-ə üzv dövlətlərin ədalət mühakiməsi təhsili sahəsində təlim-tədris müəssisələrinin quruluşu və fəaliyyətləri haqqında məlumat verilib, Türkdilli ölkələr arasında əməkdaşlığı təsis edən Naxçıvan Sazişini rəhbər tutaraq Türk Şurası nəzdində Türk Ədalət Mühakiməsi Akademiyaları Birliyinin qurulmasının imkanları qiymətləndirilib.

Əlavə olaraq, COVİD-19 pandemiyasından sonra ədalət mühakiməsi təhsilində ortaq strategiyalar və əməkdaşlığın inkişafı, ümumi problemlər və onların həlli yolları və təcrübələr müzakirə edilib. Nəticədə iştirakçılar belə bir birliyin təsis edilməsinin böyük töhfə verəcəyi və üzv ölkələrin ədalət mühakiməsi təhsili sahəsində təlim-tədris müəssisələri arasında əməkdaşlıq üçün geniş imkanlar yaradacağı haqqında yekun fikrə gəliblər.

İclasda Azərbaycan nümayəndə heyəti adından çıxış edən E.Xələfov bildirib ki, cari il iyun ayının 15-də Azərbaycanın və bütövlükdə Türk dünyasının mədəniyyət beşiyi sayılan Şuşa şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannamə"si imzalanıb. Bəyannamədə iki dost, qardaş ölkənin Türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY və Türkdilli Ölkələrin Parlament Assambleyası çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verəcəkləri xüsusi olaraq vurğulanıb.




Səfər çərçivəsində tədbir iştirakçıları Türkiyə Respublikasının ədliyyə naziri Abdulhamit Gül tərəfindən qəbul ediliblər.

TDƏŞ-ə üzv dövlətlərin ədalət mühakiməsi təhsili sahəsində təlim-tədris müəssisələri arasında əməkdaşlıq üçün səyləri dəstəkləyən nazir bu istiqamətdə görülən işləri alqışlayıb, qardaş ölkələrin nümayəndələri arasında görüşlərin zəruriliyini vurğulayıb.

Ədliyyə naziri ədalət mühakiməsi təhsili sahəsində ən yaxşı təcrübə və araşdırmaları paylaşmaq, qurumlar arasında işbirliyi qurmaq və qanunun aliliyini təmin edəcək mexanizmləri inkişaf etdirmək məqsədi ilə qurulan birliyə uğurlar arzulayıb. A.Gül həmçinin, bu ərəfədə Macarıstanın paytaxtı Budapeştdə keçirilən Avropa ədliyyə nazirlərinin konfransı çərçivəsində azərbaycanlı həmkarı Fikrət Məmmədovla görüşünü məmnunluqla xatırladıb.

E.Xələfov Vətən müharibəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla türk xalqının, qardaş ölkənin bütün yüksək rəsmi şəxslərinin, o cümlədən ədliyyə naziri Abdulhamit Gülün mənəvi və siyasi dəstəyinə görə təşək-

kürünü bildirib, iki ölkənin Ədliyyə akademiyaları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu, hakimliyə namizədlərin və hakimlərin tədrisində keçirilən birgə tədbirləri qeyd edib.

Səfər zamanı tədbir iştirakçılarının, həmçinin Ali Məhkəmənin sədri cənab Mehmet Akarca, Baş prokuror cənab Bekir Şahin, Hakimlər və Prokurorlar Şurasının üzvləri, Ali İnzibati Məhkəmənin və Ankara Batı Məhkəməsinin rəsmiləri ilə görüşləri olub.

## ◆ Hüquq tarixinin problemlərinə həsr olunmuş simpozium







**Oktyabrın 25-27-də Ankara şəhərində Türkiyənin Ədliyyə Akademiyasının, Tarix Qurumunun və Vəkillər Birliyinin təşkilatçılığı ilə hüquq tarixinin problemlərinə həsr olunmuş simpozium keçirilib.**

Azərbaycan Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının nümayəndələrinin qatıldığı beynəlxalq tədbiri giriş sözü ilə Türkiyə Ədliyyə Akademiyasının rəhbəri Mühittin Özdəmir açıb. O, hüquq tarixinin müasir hüquq sisteminin təkmilləşdirilməsi və inkişafı baxımından əhəmiyyətinə diqqət çəkib, son dövrlər hüququn tarixi aspektlərini əhatə edən tədqiqatların üstünlük təşkil etməsini, bu prosesə gənc araşdırmaçıların həvəslə qoşulduğunu və ayrı-ayrı qanunvericilik sahələrinin inkişafında bu tədqiqatların mühüm rol oynadığını vurğulayıb.

Açılış mərasimində çıxış edən Türkiyənin ədliyyə naziri Abdulhamit Gül, Tarix Qurumunun Başqanı, prof. Birol Çətin, Vəkillər Birliyinin Başqanı, prof. Mətin Feyzioğlu, Yargıtay Başqanı Mehmet Akarca, Türkiyə hüquq tarixinin ustad tədqiqatçılarından biri olan prof. Mehmet Akif Aydın hüquq tarixinin dünəni, bu günü və gələcək perspektivləri ilə bağlı maraqlı fikir və təkliflərini bölüşüblər.

Tədbirdə hüquq tarixinin müxtəlif məsələləri üzrə olduqca maraqlı məruzələr dinlənilib və müzakirələr aparılıb.

Azərbaycanda nəzəri-hüquqi fikir tarixində ədalət və qanunçuluq ideyalarının mahiyyətinə, Azərbaycanla Türkiyə arasında hüquqi münasibətlərin tarixi aspektlərinə həsr olunan məruzələrlə çıxış edən

Azərbaycanlı alimlərin fikir və təklifləri də aktuallığı ilə seçilib, böyük maraq və diqqətlə qarşılanıb.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti ilə Ədliyyə Akademiyasında görüş keçirilib. Görüşdə Türkiyə ilə Azərbaycan arasında hüquqi münasibətlərə dair fikir mübadiləsi aparılıb, bu əlaqələrin inkişaf perspektivlərinə dair təkliflər irəli sürülüb.

Türkiyə Ədliyyə Akademiyasının rəhbəri Mühittin Özdəmir Akademiyanın fəaliyyəti ilə bağlı, eləcə də Azərbaycanın müvafiq qurumları ilə birlikdə həyata keçirdikləri tədbirlər barədə məlumat verib, Azərbaycan təmsilçilərini qardaş ölkənin Ədliyyə Akademiyasının iş prosesi ilə tanış edib.

## ◆ Hakimliyə namizədlər üçün təlim

**Oktyabrın 26-27-də Ədliyyə Akademiyasında tədrisə cəlb olunmuş hakimliyə namizədlər üçün Avropa İttifaqı və Avropa Şurası tərəfindən birgə maliyyələşdirilən və Avropa Şurası tərəfindən icra edilən Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq II Proqramının "Azərbaycanda çirkli pulların yuyulmasına qarşı mübarizənin və aktivlərin bərpası sahəsində fəaliyyətin gücləndirilməsi" layihəsi çərçivəsində distant formada təlim keçirilib.**

Təlimin açılışında Avropa Şurasının Bakı Ofisinin rəhbəri Zoltan Hernyes iştirak edib.

Çıxışlarda hakimliyə namizədlər üçün Avropa Şurası ilə birgə əməkdaşlıq çərçivəsində keçirilən təlimlər, mövzunun aktuallığı, sözügedən layihənin icrası barədə məlumat verilib. Bildirilib ki, təlimin keçirilməsində məqsəd çirkli pulların yuyulması və digər maliyyə cinayətlərinin anlayışları, eləcə də müvafiq məhkəmə işlərinə baxılması ilə bağlı mövcud təcrübə sahəsində fikir mübadiləsi aparmaq, namizədləri çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi halları və aktivlərin bərpası üzrə məhkəmə işlərinə baxılmasının əsas elementləri ilə, o cümlədən maliyyə araşdırmaları, sübutların toplanılması, bu hallar üzrə ibtidai istintaqa məhkəmə nəzarəti, beynəlxalq əməkdaşlıq və digər aspektlərlə tanış etməkdir.

Belçika və Böyük Britaniyadan olan hakimlərin iştirak etdiyi təlim kursu həmçinin real məhkəmə işlərindən nümunələrlə zənginləşdirilib ki, bu da çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı işlərə baxılması istiqamətində müxtəlif prizmalardan fərqli düşüncə modellərini və yanaşmaları nümayiş etdirməyə imkan yaradıb.

# Yerli özünüidarəetmə sahəsində beynəlxalq əməkdaşlıq genişlənir

**Bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi, bələdiyyə üzvü və qulluqçularının peşəkarlıq səviyyəsinin artırılması daim diqqətdə saxlanılaraq Ədliyyə Nazirliyi tərəfindən mütəmadi olaraq təlimlər, seminarlar, maarifləndirici tədbirlər keçirilir.**

Nazirliyin Bələdiyyələrlə iş mərkəzinin təşəbbüsü ilə oktyabr 1-də Türkiyə Respublikasının Yozqat bələdiyyəsinin nümayəndələri ilə videokonfrans keçirilib. Mərkəzin, bələdiyyələrin milli assosiasiyalarının və ölkə üzrə 40-a yaxın bələdiyyə nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə yerli özünüidarəetmə sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, təcrübə mübadiləsinin aparılması və digər aktual mövzular müzakirələr olunub.

Tədbirdə Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda aparılan hərtərəfli islahatlar çərçivəsində yerli özünüidarəetmə orqanlarının

inkişafı üzrə görülən ardıcıl tədbirlər, bələdiyyələrə dövlət qayğısı barədə məlumat verilib. Bu sahədə təcrübə mübadiləsinin səmərəliliyi, iki ölkənin yerli özünüidarəetmə orqanları arasında əlaqələrin inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

Konfransda yerli iqtisadi, sosial, ekoloji proqramların hazırlanması, yerli büdcənin gəlir mənbələri, eləcə də yerli vergi və ödənişlərin hesablanması və ödənilməsi, mövcud problemlər və onların həlli yolları ilə bağlı müzakirələr aparılıb. Bu sahədə Yozqat bələdiyyəsinin müsbət təcrübəsindən danışılıb, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.







**Bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi diqqətdə saxlanılaraq Türkiyə Respublikasının Ankara şəhərinin Keçiörən bələdiyyəsi ilə videokonfrans formatında görüş keçirilib.**

Bələdiyyələrlə iş mərkəzinin, bələdiyyələrin milli assosiasiyalarının və ölkə üzrə 40-a yaxın bələdiyyə sədrlərinin iştirakı ilə keçirilən konfransın əsas məqsədi yerli özünüidarəetmə sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin aparılması olub.

Tədbirdə Keçiörən bələdiyyəsinin nümayəndələrinə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün, o cümlədən yerli özünüidarəetmə sahəsində həyata keçirilən mütərəqqi islahatlar, bələdiyyələrə dövlət qayğısı barədə məlumat verilib. Yerli özünüidarəetmə sahəsində təcrübə mübadiləsinin səmərəliliyi, iki ölkənin yerli özünüidarəetmə orqanları arasında əlaqələrin inkişaf etdirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Keçiörən bələdiyyəsinin sədri Turqut Altınok iki qardaş ölkə arasında münasibətlərin daha əhatəli və ardıcıl qurulmasında bələdiyyələrarası münasibətlərin xüsusi əhəmiyyətini qeyd edərək bu cür tədbirlərin keçirilməsi ənənəsinin davam etdirilməsini vurğulayıb.

Konfransda yerli büdcənin gəlir mənbələri və onların toplanması qaydaları, yaranmış borcların bələdiyyə büdcəsinə ödənilməsi mexanizmi, ekoloji, iqtisadi, sosial proqramların həyata keçirilməsi qaydaları, bələdiyyə qulluqçularının peşə hazırlığının artırılması ilə bağlı görülən işlər, bələdiyyə aktlarının qanunauyğunluğuna inzibati nəzarət və digər məsələlər ilə bağlı müzakirələr aparılıb,

Bu sahədə Keçiörən bələdiyyəsinin müsbət təcrübəsi ilə bağlı fikir mübadiləsi aparılıb, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Bələdiyyələrə əhatəli metodoloji köməklik göstərilir

**Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan hərtərəfli islahatlar çərçivəsində yerli özünüidarəetmənin inkişafı üzrə ardıcıl tədbirlər görülür, bələdiyyələrin fəaliyyəti təkmilləşdirilir. Ədliyyə Nazirliyinin bələdiyyələr tərəfindən qanunçuluğa əməl olunması məqsədilə həyata keçirdiyi inzibati nəzarətin səmərəliliyi artırılır, aşkar olunan xarakterik pozuntuların, onları doğuran səbəb və şəraitin aradan qaldırılması üçün əməli işlər aparılır, o cümlədən metodoloji kömək göstərilir.**

Bələdiyyələrin yerli əhəmiyyətli məsələlərin həllində fəaliyyətinin genişlənməsi üçün mühüm şərt olan yerli büdcə gəlirlərinin artırılması və büdcə vəsaitindən səmərəli istifadə olunmasına yönəlmiş metodoloji köməklik öz müsbət nəticəsini verir. Bununla bağlı cari ilin 9 ayı ərzində bələdiyyələrlə 80-dən çox seminar-müşavirə keçirilib.

Eyni zamanda, bələdiyyələrdə torpaq və əmlak vergisi üzrə uçotun, hesablamaların təkmilləşdirilməsi, vergilərin və yaranmış debitorların yığılması sahəsində ardıcıl iş aparılıb və nəticədə 270 minə yaxın torpaq və əmlak vergisi obyekti uçota götürülüb.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə Bakı bələdiyyələrinin büdcəsinə torpaq və əmlak vergisindən 2,6 milyon manat (67 %), regionlar üzrə bələdiyyələrə isə 925 min manat çox vəsait daxil olmuşdur.

Bəzi bələdiyyələrdə vergi ödəyicilərinə tədiyyə bildirişlərinin, vergi borcları barədə xəbərdarlıqların innovativ üsullarla göndərilməsinə başlanılıb, bu məqsədlə "sms-xəbər" xidməti tətbiq edilib. Bu təcrübənin digər bələdiyyələrə təşviqi üçün hazırda onun səmərəlilik səviyyəsi öyrənilir.

Bundan əlavə, bələdiyyələr tərəfindən pul tələbinə dair qəbul edilmiş inzibati aktların sayı 4 dəfə artıb, məcburi icraya yönəldilmiş bələdiyyə aktları üzrə icra qurumları tərəfindən 480 min manatdan çox vəsait borclulardan tutularaq yerli büdcələrə ödətdirilib.

Görülmüş tədbirlər nəticəsində torpaq icarə haqları üzrə əvvəlki illərdən qalmış debitor borclardan 1,7 milyon manatdan çox vəsaitin bələdiyyə büdcələrinə ödətdirilməsi təmin edilib.

Bələdiyyə torpaqlarından səmərəli istifadə olunması, o cümlədən əvvəlki illərdə icarəyə verilmiş torpaqların icarə haqlarının bazar məzənnələrinə uyğunlaşdırılması istiqamətində regional ədliyyə idarələri vasitəsilə bələdiyyələrlə aparılan davamlı metodoloji iş nəticəsində cari ildə 242 bələdiyyə tərəfindən icarəçilərlə qarşılıqlı razılaşma əsasında 18 min hektaradək torpaq sahəsini əhatə edən 1900-ə yaxın icarə müqaviləsi üzrə icarə haqqı məbləği 1 milyon manat artıb (2,4 dəfə).

Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən bu tədbirlər bələdiyyələrin fəaliyyətinin qanunauyğun təşkilinə kömək və onlara metodoloji yardım məqsədi daşıyır və onların maliyyə vəziyyətinin yaxşılaşdırılmasına, bununla da qanunvericiliklə onlara verilmiş səlahiyyətlərinin icrasına, o cümlədən yerli əhəmiyyətli məsələlərin həllində daha operativ və səmərəli iştirakına, nəticədə yerli özünüidarəetmə orqanlarına ictimai etimadın güclənməsinə xidmət edir.

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq **qərara alır:**

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, N 2, maddə 69; 2016, N 10, maddə 1600; 2018, N 7 (I kitab), maddə 1396, N 12 (I kitab), maddə 2513; 2019, N 5, maddə 809; 2020, N 4, maddə 384) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.0.8-1-ci maddə əlavə edilsin:

"1.0.8-1. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (bundan sonra - toplu) - qəbul edilmiş Azərbaycan Respublikası qanunlarının, Azərbaycan Respublikası Prezidentinin aktlarının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının dərc edildiyi aylıq rəsmi toplu;".

2. 12.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"12.2. Normativ hüquqi aktların kolliziyasına yol verməmək məqsədilə qanun layihələri ilə yanaşı onların qəbul olunması ilə əlaqədar ləğv, dəyişikliklər edilməli və hazırlanmalı olan qanun layihələri də eyni zamanda təqdim edilməlidir. Azərbaycan Respublikasının Prezidentinə təqdim olunan qanun və Azərbaycan Respublikası Prezidentinin fərmanlarının layihələri ilə yanaşı onların qəbul edilməsi ilə əlaqədar ləğv və dəyişikliklər edilməli və hazırlanmalı olan Azərbaycan Respublikası Prezidentinin aktlarının layihələri də eyni zamanda təqdim olunmalı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının (onların struktur elementlərinin) siyahısı müəyyən edilməlidir.".

3. 19-cu maddə üzrə:

3.1. 19.1-ci maddədə "və onların icrası" sözləri ", Azərbaycan Respublikası Konstitusiyasının, referendum aktının, Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının icrasını təmin etmək" sözləri ilə əvəz edilsin;

3.2. 19.4-cü maddədə "həmin aktın icrası" sözləri "bu Konstitusiya Qanununun 19.1-ci maddəsində göstərilən aktların icrasını təmin etmək" sözləri ilə əvəz edilsin.

4. 20-ci maddə üzrə:

4.1. 20.1-ci maddədə "aktları ilə nəzərdə tutulmuş hallarda və hədlərdə" sözləri "aktına, habelə Azərbaycan Respublikası Konstitusiyasından, referendum aktından, Azərbaycan Respublikası qanunlarından və Azərbaycan Respublikası Prezidentinin aktlarından irəli gəldiyi halda Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktına əsasən" sözləri ilə əvəz edilsin;

4.2. 20.4-cü maddədə "istinad etdiyi Azərbaycan Respublikası Prezidentinin aktı göstərilməli və həmin aktın icrası" sözləri "qəbulu üçün bu Konstitusiya Qanununun 20.1-ci maddəsinə uyğun olaraq əsas olmuş akt göstərilməli və həmin aktın icrasını təmin etmək" sözləri ilə əvəz edilsin.

5. 48-ci maddə üzrə:

5.1. 48.2.1-ci maddəyə "müşayiət məktubu" sözlərindən sonra ", normativ hüquqi aktın layihəsinin uyğunluğunun təmini haqqında arayış (müvafiq layihələr əlavə olunmaqla (olduğu halda))" sözləri əlavə edilsin;

5.2. 48.3.4-cü maddədə "normativ hüquqi aktların" söz-

ləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının" sözləri ilə əvəz edilsin.

6. Aşağıdakı məzmunda 75.3-cü, 76.4-cü və 76.5-ci maddələr əlavə edilsin:

"75.3. Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin aktları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarında dəyişiklik edilən zaman dəyişikliyi nəzərdə tutan normativ hüquqi aktın mətnində mötərizədə, dəyişiklik edilən normativ hüquqi aktın dərc edildiyi, habelə ona əvvəllər edilmiş dəyişiklikləri əks etdirən topluların (külliyyatların) illəri, nömrələri (kitabları) və maddələri ardıcıllıqla göstərilir.";

"76.4. Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin aktları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları ləğv edilən zaman onların ləğv edilməsinə dair normativ hüquqi aktın mətnində mötərizədə ləğv edilən normativ hüquqi aktın dərc edildiyi, ona əvvəllər edilmiş dəyişiklikləri əks etdirən topluların (külliyyatların) illəri, nömrələri (kitabları) və maddələri ardıcıllıqla göstərilməklə verilir.

76.5. Bu Konstitusiya Qanununun 76.4-cü maddəsinə uyğun olaraq ləğv edilən normativ hüquqi aktla yanaşı onun ləğv edilməsinə dair normativ hüquqi aktın mətnində göstərilən toplulara (külliyyatlara) uyğun olaraq ona əvvəllər edilmiş dəyişiklikləri nəzərdə tutan normativ hüquqi akt və ya onun müvafiq struktur elementi də ləğv edilmiş hesab edilir. Bu qayda bir neçə normativ hüquqi akta dəyişikliyi nəzərdə tutan normativ hüquqi aktlara münasibətdə də tətbiq edilir. Bu zaman onların adında və mətnində həmin dəyişikliyə dair müddəalar ləğv edilmiş hesab edilir.".

7. 77-ci maddə ləğv edilsin.

8. 82.2-ci maddə üzrə:

8.1. birinci cümləyə ikinci halda "dərc edilməsi" sözlərindən sonra ", rəsmi internet informasiya ehtiyatında yerləşdirilməsi" sözləri əlavə edilsin;

8.2. ikinci cümləyə "edilməsini" sözündən sonra "və rəsmi internet informasiya ehtiyatında yerləşdirilməsini" sözləri əlavə edilsin.

9. 89-cu maddə üzrə:

9.1. "89.0.", "89.0.1.", "89.0.2." və "89.0.3." rəqəmləri müvafiq olaraq "89.1.", "89.1.1.", "89.1.2." və "89.1.3." rəqəmləri ilə əvəz edilsin;

9.2. 89.1.2-ci maddəyə "Konstitusiyası" sözündən sonra ", bu Konstitusiya Qanunu" sözləri əlavə edilsin;

9.3. aşağıdakı məzmunda 89.2-ci maddə əlavə edilsin:

"89.2. Bu Konstitusiya Qanununun 89.1.3-cü maddəsinə uyğun olaraq normativ hüquqi akt (onun struktur elementi) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı ilə qüvvədən düşmüş hesab edildikdə həmin normativ hüquqi akt (onun struktur elementi) onu qəbul etmiş normayaratma orqanı tərəfindən ləğv edilir.".

10. Bu Konstitusiya Qanununa 1 nömrəli Əlavə - "Normativ hüquqi aktın layihəsinin, qanunun məcburi hüquqi ekspertizası rəyinin strukturu"nun 13-cü və 14-cü maddələrində "normativ hüquqi aktların" sözləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 30 sentyabr 2021-ci il*

# QANUNÇULUQ

## hüquq jurnalı

**BURAXILIŞA MƏSUL:**
**Rasim Həsənov**


Təsisçinin hüquqi ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 510-10-01, 537-05-54
Qaynar xətt: (+99412) 539-76-75
www.justice.gov.az / contact@justice.gov.az

***

Redaksiyanın ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 537-06-40
Email: mojpress@justice.gov.az

"Qanunçuluq" jurnalı redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 24  Tiraj:1000 ədəd